

Milli azadlıqdan şirin nemət yoxdur!

# Ölkəmizin daxili işlərinə müdaxilə cəhdləri tamamilə qəbuledilməzdir!

## İlham Əliyev: Qərarlar burada - Bakıda mənim tərəfimdən verilir



Bax səh. 2

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
05 aprel 2024-cü il, cümə
№ 059 (6645)
Qiyməti 60 qəpik

# Azərbaycan-Konqo: əlaqələrdə yeni səhifə...



Bax səh. 2

# Mövqeyimiz əsasdır!

Bax səh. 3

## Bakının haqlı etirazı



Bax səh. 3

## “Bu addım Qafqazı geosiyasi münaqişələr meydanına çevirəcək” -

### Türkiyədən Ermənistan, Aİ və ABŞ görüşü barədə BƏYANAT

Bax səh. 4

## 23 aprelə gedən yol

### 18 gün qalırdı...




Bax səh. 3

## Region ölkələri niyə susur?

Bu gün keçirilməsi planlaşdırılan “görüş” fonunda Qərbin bölgəyə qarşı hərəkətlənməsi yalnız Azərbaycana qarşı xarakter daşımır - bütövlükdə, regionun maraqlarını təhdid edir. Bütün bu proseslər Qərbin açıq düşmən kimi gördüyü İranın susqunluğu şəraitində baş verir. İran sanki sərhədlərində ABŞ və Aİ-nin hərbi bazasınln qurulduğunu görmür və ya görməzdən gəlir. Təsadüfi deyil ki, regiona yönəlik təhdidlərlə bağlı bir müddət öncə İran tərəfi öz narahatlığını dilə...

Bax səh. 4

## Mina terroruna “Yox!”

Hər il beynəlxalq ictimaiyyət 4 Aprel - Beynəlxalq Mina Xəbərdarlığı və Minatəmizləmə Fəaliyyətinə Yardım Günü ərəfəsində bütün dünya üzrə bir daha amansız mina terroru barədə həyəcan təbili çalır. Ən ağlagəlməz yerdə hərbçilərlə, ağır texnika ilə yanaşı, mülki insanları və digər canlıları da qəfil yaxalaya biləcək ölüm saçan minalar müharibə dəhşətlərini bütün cəhətləri ilə ortaya qoyur. Bəli, ədalətsiz müharibələr insanlıq əleyhinə cinayətdir, ölüm-itimdir...

Bax səh. 4

## Aşağı uçot dərəcəsi, bahalı kreditlər...

Məlum olduğu kimi Mərkəzi Bankın (MB) İdarə Heyətinin qərarı ilə uçot dərəcəsi 2024-cü il martın 29-dan etibarən 7,75%-dən 7,5%-ə, faiz dəhlizinin yuxarı həddini 8,75%-dən 8,5%-ə endirilib. Faiz dəhlizinin aşağı həddini isə dəyişməyərək 6,25% saxlanılıb. MB bu qərarı aşağı inflyasiya həddinin saxlanması, 2024-cü ilin ilk 2 ayında inflyasiya gözləntilərinin stabilləşməsi və qarşıdakı...

Bax səh. 5

## İpoteka ilə bağlı hansı yeniliklər gözlənilir?

Məlum olduğu kimi “İpoteka haqqında” qanuna yeni dəyişikliklər layihəsi Milli Məclisə təqdim olunub və parlamentin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında və plenar iclasda birinci oxunuşda müzakirələr zamanı müsbət qarşılanıb. Dəyişikliklər əsas etibarilə ölkədə əhalinin mənzilə olan tələbatını ödəmək, yaşayış şəraitini yaxşılaşdırmaq məqsədilə ipoteka kreditlərinə çıxışın...

Bax səh. 5

## Sülhə pəl vuran Fransa

Postmüharibə mərhələsində Azərbaycanla Ermənistan arasında başlayan sülhyaratma prosesinə beynəlxalq səviyyədə fərqli yanaşmalar müşahidə edilir. Təəssüf doğuran haldır ki, ayrı-ayrı ölkələrin və bəzi beynəlxalq təşkilatların mövqeləri etimad quruculuğunda müsbət rol almaqdan çox-çox uzaqdır. Bu qəbildən olan ölkələr və beynəlxalq təşkilatlar hansısa yollarla, manipulyativ davranışlarla sülh prosesini pozmağa çalışırlar. Özünü Avropanın aparıcı dövlətlərindən...

Bax səh. 6



## “Rasmussen Global” Ermənistan hökumətinin “təbliğat şöbəsi” rolunda...

Bax səh. 6

## Vaşinqton çətin sınaq qarşısında...

Bax səh. 7

# Azərbaycan-Konqo: əlaqələrdə yeni səhifə...

## Prezident Deni Sassu-Nqesson Bakıdadır

### Rəsmi qarşılanma



Azərbaycan Respublikasına rəsmi səfərə gələn Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqessonun aprelin 4-də rəsmi qarşılanma mərasimi olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev Konqo Prezidenti Deni Sassu-Nqessonu qarşıladı.



### Təkbətək görüş

Aprelin 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqesso ilə təkbətək görüşü olub.

### Geniştərkibdə görüş

Aprelin 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqesso ilə geniş tərkibdə görüşü keçirilib.

Qonaqları salamlayan Prezident İlham Əliyev bildirib ki, Konqo Prezidentinin ölkəmizə səfəri çox böyük əhəmiyyət daşıyır və təkbətək görüş zamanı bir çox məsələlər geniş müzakirə edilib: "Gündəliyimiz kifayət qədər genişdir. Biz bu gün siyasi, iqtisadi, investisiya, energetika və digər sahələrdə mümkün olan əməkdaşlıq haqqında danışmışıq. Müzakirə olunan bütün məsələlərlə bağlı bizim fikrimiz üst-üstə düşür. Təbii ki, səfəriniz bizim gələcək əməkdaşlığımıza da çox müsbət təsir göstərəcəkdir. Bizim siyasi əlaqələrimiz daha da möhkəmlənəcək. Ümid edirəm ki, səfərdən sonra əldə edilmiş razılaşmaların icrası nəticəsində ticarət dövriyyəsində müsbət dinamika yaranacaq. Energetika və kənd təsərrüfatı sektorlarındakı əməkdaşlıq haqqında biz Sizinlə bu gün geniş fikir mübadiləsi aparmışıq və yenə də fikir ayrılığı yoxdur. COP29-la bağlı birgə işləməyə hazırıq və bizə verdiyiniz dəstəyə görə sizə təşəkkürümü bildirirəm".



Təhsil, mədəniyyət və digər sahələrdəki əməkdaşlıq imkanlarının da müzakirə dildiyini söyləyən dövlətimizin başçısı bildirib ki, aparılmış bütün müzakirələrdə vahid mövqe var.

"Sizin rəsmi səfərinizdən öncə Konqodan və Azərbaycandan nümayəndə heyətlərinin qarşılıqlı surətdə səfərləri təşkil edilmişdir. Bu, səfərə hazırlıq məqsədi daşıyan addımlar idi" - deyən Prezident İlham Əliyev imzalanacaq sənədlər və razılaşdırılmış məsələlərin əməkdaşlığımızı gücləndirəcəyinə əmin olduğunu vurğulayıb.

Sonra Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqesso çıxış edərək dəvətə və yaradılmış şəraitə Azərbaycan Prezidentinə təşəkkürünü bildirib. Ölkələrimiz arasında çox böyük potensial olduğunu və bu potensialın Konqo əhalisinin inkişafına töhfə verə biləcəyini deyən Prezident Deni Sassu-Nqesso ölkəsinin çox böyük kənd təsərrüfatı potensialı olduğunu bəyan edib: "Biz əkin sahələrinin bəlkə də cəmi 3 faizini istifadə edirik, bu da o deməkdir ki, yerdə qalan hamısı istifadə üçün hazırdır. Bizim bol su mənbələrimiz və bütün ilboyu şəfəq saçan Günəşimiz var. Biz bu potensialdan və sizin bu sahədəki böyük təcrübənizdən kənd təsərrüfatımızın inkişafı üçün istifadə edə bilərik. Məsələn, biz Konqoda məhsul istehsal edə və sonra onu ixrac edə bilərik.

Mən, eyni zamanda, bir daha qeyd etmək istərdim ki, bərpaolunan enerji sahəsində də bizim çox böyük potensialımız var, bütün ilboyu Günəşimiz var və Azərbaycanın bu sahədəki zəngin təcrübəsindən yararlana bilərik" .

# Ölkəmizin daxili işlərinə müdaxilə cəhdləri tamamilə qəbuledilməzdir!

## İlham Əliyev: Qərarlar burada - Bakıda mənim tərəfimdən verilir



Prezidentin Mətbuat Xidməti AZƏRTAC-ın sualını cavablandırıb.

Sual: Dünən ABŞ Dövlət katibi Antoni Blinkenlə Prezident İlham Əliyev arasında telefon danışığı ilə əlaqədar ABŞ tərəfindən verilmiş mətbuat açıqlamasında qeyd olunur ki, telefon danışığı zamanı müzakirə edilən məsələlərdən biri də insan hüquqları olmuşdur. Bu barədə nə deyə bilərsiniz?

Cavab: Bəli, telefon danışığı əsnasında bir çox məsələlərə, o cümlədən bu məsələyə də toxunulmuşdur. Prezident İlham Əliyev tərəfindən bildirilib ki, insan hüquqları məsələsini bəhanə edərək Azərbaycanın daxili işlərinə müdaxilə cəhdləri tamamilə qəbuledilməzdir. Bir sıra Qərb ölkələrinin bu məsələ ilə bağlı ikili standartlara əsaslanan qərəzli açıqlamalarını qəbul etmirik. Bu xüsusda dövlətimizin başçısı Dövlət katibi Antoni Blinkenə Ermənistanda müxalifət nümayəndələrinin həbsi, hətta həbs müddətində ölüm hallarının olması, insan hüquqlarının pozulması hallarını xatırladıb və bu kontekstdə Qərb ölkələrinin səssizliyinin başadüşülən olmadığını, bu kimi faktların məhz ikili standartların bariz nümunəsi olduğunu qeyd edib.

Prezident İlham Əliyev telefon danışığı zamanı, həmçinin tanınmış jurnalist Culian Assancın məhz jurnalist fəaliyyətinə görə uzun müddət fiziki və mənəvi işğəncələrə məruz qalması məsələsini bildirmişdir. Culian Assancın ABŞ-a ekstradisiya edilmək və edam olunmaq məsələsinin müzakirə edildiyini vurğulamışdır. Dövlətimizin başçısı onu da əlavə etmişdir ki, insan hüquqları məsələsinə təkcə lokal deyil, bütövlükdə qlobal kontekstdə baxılması zəruridir.

P.S. Regionla bağlı veriləcək qərarlarda, atılacaq addımlarda Azərbaycanın rəyi əsas götürülməlidir. Xatırladaq ki, Azərbaycan Prezidenti 2021-ci ilin oktyabr ayında İtaliyanın "La Repubblica" qəzetinə müsahibəsində Azərbaycanın mövqeyini açıqlamışdı: "Heç bir digər ölkə Azərbaycanın qərarlarına təsir edə bilməz və ya buna çalışmalı deyil. Qərarlar burada - Bakıda Azərbaycanın milli maraqları əsasında mənim tərəfimdən verilir"

### Sənədlər imzalandı



Aprelin 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqessonun iştirakı ilə Azərbaycan-Konqo sənədlərinin imzalanması mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqesso "Azərbaycan Respublikası və Konqo Respublikası arasında əməkdaşlıq haqqında Bəyannamə"ni imzaladılar.

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəf və Konqo Respublikasının Milli Neft Cəmiyyətinin baş direktoru Maixent Raoul Ominga "Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Konqo Milli Neft Şirkəti arasında təlim haqqında Anlaşma Memorandumu"nu imzaladılar.

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəf və Konqo Respublikasının Milli Neft Cəmiyyətinin baş direktoru Maixent Raoul Ominga "Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Konqo Milli Neft Şirkəti arasında "Congolaise de Raffinage" neft emalı zavodunun təkmilləşdirilməsi və genişləndirilməsi haqqında Şərtlər Razılığı"nı imzaladılar.



Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev və Konqo Respublikasının ətraf mühit, dayanıqlı inkişaf və Konqo hövzəsi naziri xanım Arlette Soudan Nonault "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Konqo Respublikasının Ətraf Mühit, Davamlı İnkişaf və Konqo Hövzəsi Nazirliyi arasında ətraf mühit, təbii sərvətlərin davamlı idarə olunması və iqlim dəyişmələri üzrə əməkdaşlıq sahəsində Niyyət Protokolu"nu imzaladılar.

# Azərbaycan Konqoda bir çox investisiya layihələrində iştirak etmək fikrindədir

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Konqo Prezidenti Deni Sassu-Nqesso mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə bəyanatla çıxış edən dövlətimizin başçısı Konqo Prezidentini Azərbaycanda səmimiyyətlə salamlayaraq, bu səfəri tarixi səfər kimi qiymətləndirib: "İlk dəfədir ki, Konqo Respublikasının Prezidenti Azərbaycana rəsmi səfər edir. Artıq demək mümkündür ki, səfərin çox gözəl nəticələri olacaq.



Biz indicə əməkdaşlıq haqqında Bəyannamə imzalamışıq. Bu, çox önəmli və sanballı bir sənəddir, bizim əməkdaşlığımızın perspektivlərini müəyyən edəcək. Əminəm ki, Konqo ilə Azərbaycan arasında güclü dostluq əlaqələri yaradılacaqdır.

Bu gün həm təkbətək görüş əsnasında, həm də ki, heyətlərin iştirakı ilə görüşdə bir çox önəmli məsələlər müzakirə olundu, fikir birliyi ifadə edildi. Bizim siyasi əlaqələrimizin bundan sonra uğurla inkişaf edəcəyinə heç kimdə şübhə yoxdur və bu gün imzalanmış əməkdaşlıq haqqında Bəyannamə bunu bir daha təsdiq edir".

Bundan sonra da beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstək əsasında qarşılıqlı fəaliyyətimizi davam etdirəcəyimizi bildirən Prezident İlham Əliyev qeyd edib ki, Konqo hər zaman Azərbaycanın təşəbbüslərinə dəstəyini verib: "Qoşulmama Hərəkatına bu ilin yanvar ayına qədər 4 il uğurla sədrlik etmiş Azərbaycan Konqonun dəstəyini hər zaman hiss etmişdir. Bizim təşəbbüslərimizə Konqo hər zaman öz dəstəyini vermişdir və bunun nəticəsində sədrliyimiz dövründə Qoşulmama Hərəkatının institusional inkişafı da təmin edilmişdir. Parlament Şəbəkəsi, Gənclər və Qadınlar platformaları məhz sədrliyimiz dönəmində yaradılmışdır. Bu gün Qoşulmama Hərəkatı əvvəlki dövrlərə nisbətən daha güclü təşkilatdır. Bu təşkilatın dünya miqyasında və dünyada gedən proseslərdə oynadığı rolunun artırılması hesab edirəm ki, hamımızın marağındadır. Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci böyük təsisatdır, 121 üzvü var. Biz bu təsisatın, bu hərəkatın gələcək inkişafı ilə bağlı geniş fikir mübadiləsi aparmışıq.

Onu da bildirməliyəm ki, Qoşulmama Hərəkatına sədrlik dövründə bizim prioritetlərimizin içində neokolonializmə qarşı mübarizə məsələləri durmuşdur, bu gün də bu belədir. Bizim xarici siyasət istiqamətləri arasında bu sahə xüsusi önəm daşıyır. Bir müddət bundan əvvəl Azərbaycanda Bakı Təşəbbüs Qrupu yaradılmışdır. Bu, beynəlxalq qurumdur. Bu qurumun əsas məqsədi kolonializmin, yeni müstəmləkəçiliyin yeni təzahürlərinə qarşı mübarizə aparmaq və bu gün müstəmləkəçilikdən əziyyət çəkən xalqları dəstəkləmək, o xalqların hüquqi əsaslar üzərində azadlığa qovuşmasını təmin etməkdir. Bakı Təşəbbüs Qrupu bu gün dünya miqyasında böyük hörmətə malik olan qurumdur və yenə də deyirəm ki, bu qurumun nəticələri göz qabağındadır".

İqtisadi sahədə də əməkdaşlıq haqqında geniş fikir mübadiləsi aparıldığını söyləyən dövlətimizin başçısı nümayəndə heyətlərinin üzvlərinə konkret tapşırıqlar verildiyini bildirib. Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan Konqoda bir çox investisiya layihələrində iştirak etmək fikrindədir, ilk növbədə, kənd təsərrüfatı sahəsində: "Bərpaolunan enerji sahəsində, energetika sahəsində, mədənçilik və digər sahələrdə əməkdaşlıq üçün çox gözəl perspektivlər var. Bu gün müzakirə aparıldı, müvafiq göstərişlər verildi və əminəm ki, gələcək aylar ərzində bizim nümayəndələrimiz bir-biri ilə sıx təmasda olacaqlar".



Dövlətimizin başçısı bildirib ki, vaxtilə sovet dövründə Konqodan olan tələbələr Azərbaycanda ali məktəblərdə təhsil almışlar, biz bu ənənəni bərpa etmək istəyirik və müvafiq göstərişlər verilib.

"Bir sözlə, mən deyəndə ki, bu səfər tarixi səfərdir, sadəcə, ona görə yox ki, bu, ilk səfərdir. Hesab edirəm ki, məzmun, mahiyyət nöqteyi-nəzərindən də bu səfəri tarixi səfər adlandırmaq olar. Ölkələrimiz arasındakı əlaqələrdə yeni səhifə açılır. Biz öz siyasi iradəmizi ortaya qoymuşuq və əminəm ki, əldə edilmiş bütün razılaşmalara birgə səylərlə çatacağıq.

Mən bu gün cənab Prezidenti COP29 tədbirində iştirak etmək üçün dəvət etmişəm və nümayəndə heyətlərinin üzvlərinə də göstəriş verildi ki, bu məsələ ilə bağlı da ciddi əməkdaşlıq yaradılsın. Azərbaycan COP29-un prezidenti kimi bu tədbirə çox ciddi hazırlaşır və burada Konqo ilə ikitərəfli formatda və çoxtərəfli formatda əməkdaşlıq etmək hesab edirəm ki, məqsədəmüvafiq ola bilər" - deyə Prezident İlham Əliyev çıxışını yekunlaşdırıb.

# Biz beynəlxalq səviyyədə birlikdə mübarizə aparacağıq

Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqesson bəyanatla çıxış edərək, Azərbaycan ilə Konqo arasında əlaqələrdə tarixi anlar yaşanır. Dəvətə görə Azərbaycan Prezidentinə təşəkkürünü bildirən Deni Sassu-Nqesson söyləyib ki, Prezident bizə Konqo ilə Azərbaycan arasında bütün sahələrdə bu gözəl əməkdaşlıq səhifəsini yaratmaq imkanını verdi: "Hesab edirəm ki, Prezident bir az əvvəl apardığımız danışıqların bir sıra aspektlərini çox yaxşı şərh etdi. Mən əlavə etmək istərdim ki, biz xüsusilə Qoşulmama Hərəkatındakı sədrliyi zamanı Prezidentin liderliyini alqışladıq. Həmçinin biz Azərbaycanın bu yaxınlarda digər ağır mübarizə sahəsində - iqlim dəyişiklikləri sahəsində oynayacağı rolu alqışlayırıq, çünki Azərbaycan COP29-a ev sahibliyi edəcək. Biz artıq ölkələrimiz arasında qurulmuş əlaqələri alqışlayırıq və Azərbaycanı COP29-a hazırlıq çərçivəsində də alqışlayırıq. Biz Azərbaycan rəsmilərini dəvət etdik ki, iqlim dəyişikliklərinə qarşı mübarizədə ölkəmizin yanında olsun. Biz Prezidentə Konqoda, Brazzavildə təşkil etdiyimiz dünyanın ən böyük üç tropik meşə hövzəsi - Amazoniya, Cənub-Şərqi Asiyada Borneo Mekonq və Konqo hövzəsi sammitində güddüyümüz məqsədlər barəsində məlumat verdik. Bu sammit ötən ilin oktyabrında keçirilib və biz Prezidentə yalnız bu sammitin uğuru barəsində məlumat verə bilərik. Ondan sammitin nəticələrini nəzərə almasını ancaq xahiş edə bilərik, çünki bu il Azərbaycan COP29-a ev sahibliyi edəcək.



Biz, eyni zamanda, bu il iyulun 2-3-də Brazzavildə keçiriləcək Afrika və Qlobal Meşəsalma Onilliyi tədbiri barədə məlumat verdik. Bu, Şarm-əl Şeyxdə keçirilmiş COP zamanı Konqo tərəfindən irəli sürülmüş təşəbbüsdür. Biz Afrika və Qlobal Meşəsalma Onilliyi ideyasını irəli sürdük. Bu ideyanı konkretləşdirmək, bu layihəni reallaşdırmaq üçün Afrika İttifaqı, BMT və Konqo konfrans təşkil edəcək. Biz COP29-un təşkili ilə məşğul olan Azərbaycan rəsmilərini bu ideyanın reallaşdırılması və sonra onun Nyu-Yorkda BMT-nin Baş Assambleyasının növbəti sessiyasında qəbul olunması üçün iyulda bizə qoşulmağa dəvət etdik".

Digər əməkdaşlıq məsələlərinə toxunan Konqo Prezidenti karbohidrogen, kənd təsərrüfatı, mədənçilik, informasiya, bərpaolunan enerji sahələrində iki ölkənin mühüm potensialının olduğunu söyləyib. O qeyd edib ki, ölkələrimiz arasında bu sektorlarda da əməkdaşlıq inkişaf etsin.

Prezident Deni Sassu-Nqesson əməkdaşlıq istiqamətində çox yaxşı addım atıldığını vurğulayıb və Azərbaycan Prezidentini Konqoya dostluq səfərinə dəvət edib: "Mən ona dəvətnamə göndərəcəyəm və biz Prezidenti ölkəmizdə qəbul etməkdən şərəf duyacağıq. Bu da başqa bir tarixi hadisə olacaq. Prezidentin bizim ölkəmizə səfəri məhsuldar əməkdaşlığımızda növbəti addım olacaq.

Mən bizim tərəfimizdən ünvanlanan bütün sorğulara müsbət cavab verdiyinə görə Prezidentə təşəkkürümü ifadə edirəm. Bildirmək istərdim ki, biz beynəlxalq səviyyədə - istər BMT, istər Qoşulmama Hərəkatı çərçivəsində, istərsə də digər sahələrdə birlikdə mübarizə aparacağıq. Çünki söhbətimiz zamanı fikirlərimizin bir-biri ilə yüksək səviyyədə üst-üstə düşdüyünü gördük. Prezident və mənim tərəfimdən imzalanan Bəyannamə mühüm mərhələdir. Fikrimcə, bu, gələcək aylarda və illərdə ölkələrimiz arasında bütün sahələrdə fəaliyyəti istiqamətləndirəcək".

***

Aprelin 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqessonun şərəfinə rəsmi nahar verilib.

# Azərbaycanın mövqeyi əsasdır!

## ABŞ dövlət katibinin zəngi nədən xəbər verir? Blinken Prezident İlham Əliyevə izahat verdi

*P.Sadayoğlu*

Son bir neçə gündür ki, mətbuatda Brüsseldə keçirilməsi planlaşdırılan və Azərbaycanın etiraz etdiyi 5 aprel "görüşü" müxtəlif istiqamətlərdə təhlil olunaraq gündəmə gətirilir. Bu etirazlar fonunda Qərb təsisatları nəinki münasibət bildirmədi, hətta şərti sərhəddə təxribat olması üçün şərait yaratdı, anti-Azərbaycan bəyanatlarla çıxışlar etdi... Və Aprelin 3-də 5 aprel "görüşü" məruzəsi ilə ABŞ Dövlət Departamenti Azərbaycan Prezidenti qarşısında izahat verməyə məcbur oldu. Niyə məcbur oldu? Çünki Azərbaycanın son 4 ildə əldə etdiyi uğurlar - ərazi bütövlüyünün bərpası, iqtisadi-siyasi gücünün artması, regionun liderinə çevrilməsi amilləri beynəlxalq güclləri onunla hesablaşmağa vadar etdi...

Prezident İlham Əliyev hər zaman cəsarətlə və milli maraqlara söykənən şərtlər əsasında xalqının və dövlətinin mənafeyini qoruyur. Aprelin 3-də Vaşinqtondan Bakıya açılan zəng də məhz Azərbaycan Liderinin qətiyyətliliyinə, milli maraqlarını önə çaxaran cəsarətli addımlarına hesablanmış zəng idi. Telefon danışığı zamanı Prezident İlham Əliyev öz fikrini söyləyib. Bildirib ki, Onun qənaətinə görə aprelin 5-də keçirilməsi planlaşdırılan ABŞ, Avropa İttifaqı və Ermənistan üçtərəfli görüşünün qeyri-şəffaf hazırlanması, qeyri-inklüziv xarakter daşıması və Azərbaycanın haqlı iradlarına baxmayaraq təxirə salınmaması Cənubi Qafqazda sülhə, əməkdaşlığa deyil, ayırıcı xətlərin və nəticə etibarilə gərginliyin yaranmasına gətirib çıxaracaq.





Vurğulandığı kimi, nəzərdə tutulan bu görüş yalnız Azərbaycanın deyil, ümumilikdə, regionətrafı dövlətlərin də milli maraqları ilə səsləşmir. Qeyri-inklüziv xarakterli bu "görüş" Qərb arzularının daşıyıcısı kimi meydana çıxır. Amma bütövlükdə, Cənubi Qafqazdakı mövcud sabit durumu təhlükə qarşısında qoyur. Ən aktual səbəblər isə:

- Bu hal regionun ticari maraqlarının, yeni rəqəmsal daşımacılıq imkanlarının hədəfə alınmasıdır;

- Müstəqil xarici siyasət kursu yürüdən dövlətlərə qarşı siyasi sabotajdır;

- Şərq-Qərb tranziti üzrə formalaşdırılan yeni iqtisadi münasibətlərin rentabelliyinin düşürülməsi cəhdidir;

- Ticari aortanın işinə mane olmaq üçün atılan addımlardır.

Beləliklə, ABŞ və Aİ-nin planı ilə ortaya çıxacaq bu "hərbi pakt" bütün region üçün təhdid yaradır.

### Fransız yalanı...

Telefon danışığı zamanı dövlətimizin başçısı Qərbdə Azərbaycanın Ermənistana hücum etmək niyyətində olduğu barədə səsləndirilən ittihamların tamamilə əsassız olduğunu vurğulayıb. Prezident İlham Əliyev aprelin 2-də Parisdə Entoni Blinken ilə keçirilmiş mətbuat konfransında Fransa xarici işlər nazirinin yalan danışaraq, Azərbaycanı Ermənistanın ərazi bütövlüyünü tanımamaqda və Ermənistana qarşı təhlükə mənbəyi olmaqda ittiham etdiyini bildirib. Dövlətimizin başçısı Azərbaycanın 2022-ci ildə Praqa görüşü zamanı qəbul edilmiş bəyanata və Alma-Ata bəyanatına sadiq olduğunu vurğulayıb.

Vurğulandığı kimi, Azərbaycan regionda sülhün və əməkdaşlığın inkişafını hədəfləyib. Bunun nəticəsidir ki, sülh prosesi məhz Azərbaycan tərəfindən irəli sürülüb. Azərbaycan bölgənin ümumi yeni inkişaf tempini yaradır, hətta daha da gücləndirir. Bunun üçün münbit zəmin formalaşmaqdadır. Lokal antiterror tədbirlərinin uğurla yekunlaşması Cənubi Qafqaz - Mərkəzi Asiya - Kiçik Asiya ticarət xəttinin sülh və sabitliyin hökm sürdüyü ərazilərdən keçəcəyinə dəlalət edir. Eyni zamanda, real geosiyasi mahiyyəti yeni perspektivlər formalaşdırır. Azərbaycanın apardığı siyasi xətin nəticəsidir ki, Ermənistan ilə münasibətlərin normallaşması prosesi bir necə addım daha da qabağa daşınıb - bu, İrəvan üçün də yeni iqtisadi üfiqlər formalaşdırır. Ölkəmizin apardığı siyasət geosiyasi coğrafiyamızda nəzərdə tutulan bölgəsəl və qlobal layihələrin reallaşması üçün ortada hər hansı bir problemin olmadığını üzə çıxarır. Ermənistanın konstruktiv mövqeyə gəlişi isə qlobal nəqliyyat xətlərinin şaxələndirilməsi üçün zəmin yaradacaq. Beləliklə, Azərbaycanı yalan "ittihamlarla" hədəfə alan Fransa bir daha qərəzini, müharibə arzusunu ortaya qoymuş olur.

### ABŞ və Aİ-nin oyuncağı...

Təəssüfləndirici haldır ki, 5 aprel "görüş"ünün əsas mahiyyətini "Ermənistanın iqtisadi inkişafı məsələlərinin təşkil edəcəyi" ilə pərdələməyə çalışan Qərb bu məsələdə öz gündəliyini irəli aparmaqda israrlıdır. Ssenari isə bəllidir - bu görüşün "nəticəsi" Ermənistanın tam şəkildə Qərbin sərəncamına verilməsini nəzərdə tutur. Ermənistanın tutduğu mövqe isə Cənubi Qafqazın hazırkı siyasi-ictimai aurası ilə eynilik təşkil etmir. Başqa sözlə, Azərbaycanın yaratdığı yeni reallıqlarda müstəqil siyasi-iqtisadi subyekt kimi təqdim olunan Cənubi Qafqazın bir hissəsi sayılan Ermənistan yenə kimlərinsə əlində oyuncaq olmaqda "israrlıdır". Necə ki, tarixən başqa-başqa güclərin əlində alətə çevrilərək Cənubi Qafqaz üçün "dəyənək"dən başqa mahiyyət kəsb etmədiyi kimi. Ermənistan 30 il ərzində regionda Rusiyanın platsdarmı olub, indi isə Fransa başda olmaqla, Qərbin hərbi platsdarmına çevrilir.

Təəssüf ki, Ermənistan tarixin bütün dönəmlərində ayrı-ayrı güclərin oyuncağı kimi istifadə olunub, indi də olunur. ABŞ və Avropanın Ermənistanın əli ilə regionda münaqişə ocağı yaratmaq istəyi bunun açıq təcəssümüdür. Ötən əsrin 80-ci illərin sonunda məhz Ermənistanın əli ilə başlanan münaqişə, SSRİ-yə qarşı siyasətdə Qərbdəki erməni lobbisinin Qərblə müttəfiqliyi bu gün fərqli donda ortaya çıxır. Bu dəfə artıq hədəf nə SSRİ, nə də Azərbaycandır - hədəf Ermənistanın özünə də yeni inkişaf mərhələsi qazandıracaq qlobal layihələrə nəzarət arzusudur. Amma bu arzunun yerinə yetməsi üçün "alət" dəyişməyib - Ermənistan yenə də başqalarının "arzusunun ifadəçisi" olmaqda davam edir.

### Vətən müharibəsi qlobal güclərin oyununu pozdu...

Göründüyü kimi, Cənubi Qafqaz regionunda cərəyan edən geosiyasi oyunlar sanki III Dünya müharibəsinin və dünyanın yenidən bölünməsi ssenarisinin tərkib hissəsidir. Bu oyunların "planı" isə hələ XXI əsrin əvvəlindən cızılmışdı - 2020-ci il Vətən müharibəsi böyük güclərin bu məqsədli və korporativ maraqlara əsaslanan planını pozdu - çünki əvvəlki status kvo Azərbaycan və Türkiyədən başqa hamını qane edirdi. Bu Azərbaycan torpaqlarının işğalına və Cənubi Qafqazda ikinci erməni dövlətinin yaranmasına hesablanmış ssenari idi. Bu oyunun "qaydaları" Prezident İlham Əliyev pozdu. Regionda yeni reallıq və yeni situasiya formalaşdırıldı. Bu gün bu yeni reallıqla Qərb və Ermənistanın havadarları barışmaq istəmir.

Azərbaycanın regionda formalaşdırdığı yeni siyasi-hərbi, eləcə də iqtisadi reallıqlar Cənubi Qafqaza özünün geosiyasi, geocoğrafi üstünlüklərini iqtisadi dividendə çevirmək şansı qazandırıb. Bu mərhələ Cənubi Qafqazın həyatında yeni - sabit, inkişafa yönəlik dövrün başlanğıcı kimi qeyd edilir. Qarabağda keçirilən lokal antiterror tədbirləri, separatçı xuntanın fəaliyyətinə son verilməsi isə regionun iqtisadi imkanlarını şaxələndirir. Azərbaycan bölgəyə xarici sərmayənin cəlb olunması istiqamətində fəal iş aparır. Bu fakt həm də qarşılıqlı inteqrasiyanı gücləndirən amilə çevrilmək imkanına malikdir. Sadalanan məsələlər olduqca böyük əhəmiyyət daşıyır və göründüyü kimi, Qərb bu sabitliyin və inkişafın təşəkkül tapmasında maraqlı deyil. Fransanın "patronajlığı" ilə Aİ-nin, eləcə də ABŞ-ın son dövrlərdə ölkəmizə qarşı yönəldilən aqressiya və təzyiq kampaniyaları onların planlarının pozulduğunu dəməyə əsas verir. Məhz qeyd edilən "ünvanlar"ın "ideya müəllifi" olduğu bəzi məsələlər - silahlandırma, "mülki missiya" adı altında kəşfiyyat qruplarının İrəvana yönləndirilməsi, "qaçqın" görüntüsü ilə maliyyə trafikinin daha da artırılması Qərbin Cənubi Qafqaz üzərindən oynamağa çalışdığı çirkin oyunları ifşa edir.




## 23 aprelə gedən yol

### 18 gün qalırdı...

### Aksiyanın 115-ci günü

-Laçın-Xankəndi yolunun Şuşa ərazisindən keçən hissəsində təşkil olunan etiraz aksiyası artıq 115 gündür davam edirdi. Hər zaman olduğu kimi, dinc aksiyanın iştirakçıları ərazidən humanitar məqsədlər üçün istifadəyə şərait yaradıblar.

-Xankəndidən Laçın istiqamətinə hərəkət edən Beynəlxalq Qırmızı Xaç Komitəsinə (BQXK) məxsus 1 yük, 8 minik avtomobili ərazidən maneəsiz keçib.

-Bundan başqa, Rusiya sülhməramlılarına məxsus üç yük avtomobilinin Xankəndidən Laçın istiqamətinə, iki yük avtomobilinin isə Laçından Xankəndiyə sərbəst hərəkəti təmin edilib.

-Eyni zamanda sülhməramlılara məxsus 38 avtomobilin Xankəndidən Laçın istiqamətinə sərbəst hərəkəti təmin edilib. Şəxsi heyəti daşıyan avtomobillərin ikisinin içində mülki vətəndaşlar olub. Gün ərzində aksiya ərazisindən Rusiya sülhməramlılarına məxsus 57, Beynəlxalq Qırmızı Xaç Komitəsinin isə 9 avtomobili keçib.

Erməni qadına tibbi yardım göstərilib...

-Xankəndi-Laçın yolunda Qarabağda yaşayan erməni qadının halı pisləşib, azərbaycanlı həkimlər yardım göstərib. Rusiya sülhməramlılarının müraciətindən sonra əraziyə operativ şəkildə Şuşa şəhərində yerləşən modul tipli xəstəxananın təcili tibbi yardım avtomobili gəlib. İxtisaslaşmış həkim heyəti xəstəyə yerində ilk tibbi yardım göstərib. Daha sonra erməni əsilli qadın öz istəyinə əsasən təcili tibbi yardım avtomobili ilə azərbaycanlı həkimlərin müşayiəti altında Xankəndi şəhərinə aparılıb.

Bununla da Azərbaycan tərəfi humanistlik göstərərək öz ərazisində yaşayan erməni əsilli vətəndaşın qayğısına qalmasını nümayiş etdirib.

## ABŞ-Aİ cütlüyü anlayır ki, indiki dövrdə Azərbaycanın mövqeyini nəzərə almadan bölgə ilə bağlı hər hansı bir hərəkətlənmə mümkün ola bilməz!

# Bakının haqlı etirazı

*Pərviz İsmayılov*

30 ilə yaxın erməni işğalından əziyyət çəkmiş Azərbaycan 2020-ci ilin payızında öz gücü ilə ədaləti bərpa etdi. 44 gün davam etmiş Vətən müharibəsi Azərbaycanın ərazi bütövlüyü ilə yanaşı, erməni təcavüzünü qəbul etməyən, işğal faktının qeyd-şərtsiz sona çatmasının gərəkdiyini vurğulayan beynəlxalq konvensiyaların icrasını şərtləndirdi. Beləliklə, son 4 ildə Azərbaycan apardığı uğurlu siyasi kursla həm bölgədəki separatizm meyllərini aradan qaldırdı, həm də yeni regional iqtisadi-siyasi konfiqurasiya formalaşdırdı. Birinci amilin yaratdığı yeni reallıq kimi ortaya çıxmış yeni iqtisadi-siyasi konfiqurasiya isə Azərbaycanın xarici siyasət kursu ilə eyni istiqamətə köklənib - əməkdaşlığı, iqtisadi inkişafı və normal münasibətlərin qurulmasını özündə ehtiva edir. Ümumiyyətlə, Azərbaycan hər zaman ikitərəfli və çoxtərəfli əlaqələrin maksimal şəkildə vertikallaşdırılmasının tərəfdarı kimi çıxış edib. Qlobal məkanda yeni enerji təhcizatçısı kimi qısa zamanda şöhrət qazanan ölkəmiz xüsusilə Avropanın enerji təhlükəsizliyində əsaslı rol oynayır.

Təəssüfləndirici haldır ki, Azərbaycanın apardığı bu açıq, şəffaf və qarşılıqlı maraqlara əsaslanan siyasət Qərb tərəfindən adekvat cavablandırılmır. Bölgədə destruktiv təhdid olaraq xarakterizə edilən Ermənistanı silahlandırmaq, yeni müharibələr üçün stimullaşdırmaq yolunu seçən Qərb hətta bu addımlarının "təbliğini" etməkdən də çəkinmir. Aprelin 5-də Brüsseldə baş tutacağı ehtimal edilən Aİ-ABŞ-Ermənistan üçtərəfli görüşü bu mənada, böyük narahatlıqlara yol açır. Azərbaycan dövləti və ictimaiyyəti haqlı olaraq bu görüşü regionun gələcəyi üçün təhlükə sayır və yaranma ehtimalı böyük olan yeni "hərbi pakt"ın regional inkişafa mühüm mənfi təsirlər göstərəcəyini ortaya qoyur.

### Bölgədə təhdid dalğası ...

Qeyd edildiyi kimi, Azərbaycan dövləti hər zaman Avropa İttifaqının, xüsusilə də onun bəzi üzv dövlətlərinin regionumuza münasibətdə müəyyən yanaşmaları və fəaliyyətləri ilə bağlı öz mövqeyini açıq şəkildə ifadə edib. Xüsusilə, Fransanın Ermənistanı silahlandırmaqla bağlı apardığı açıq və təhdid xarakterli siyasi kursunun regionda yeni eskalasiyalara yol açma təhlükəsi formalaşdırdığı vurğulanıb. Halbuki post-müharibə dövründə Azərbaycan açıq sülh təklifləri ilə çıxış edib və Ermənistanla münasibətlərin normallaşması prinsipləri təklifini səsləndirib. Təəssüf ki, Azərbaycanın bu xoşməramlı mövqeyi öz maraqları üçün Ermənistanı "dəstəkləyən" bəzi güclər tərəfindən manipulyasiyaya məruz qoyulub. Məsələn, Aİ-nin "mülki missiya" adı altında regiona göndərdiyi kəşfiyyat qrupunun fəaliyyəti buna ən real misaldır.

İndiki halda isə ABŞ və Aİ-nin açıq "dəstək kampaniyası" ilə çıxış etməsi haqlı etiraz yaradır. Avropa Sülh Fondu çərçivəsində Ermənistana hərbi yardımın göstərilməsi planları və aprelin 5-də baş tutacaq toplantının hərbi komponentləri nəzərdə tutduğuna dair məlumatlar əlavə narahatlıq doğurur və regionda sülh quruculuğu səylərinə zəbl gətirir. Maraqlıdır ki, Azərbaycan 30 ilə yaxın silahlı təcavüzün, işğalın və etnik təmizləmənin qurbanı olduğu halda və hətta BMT Təhlükəsizlik Şurasının Ermənistanın işğalçı qüvvələrinin dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsinə baxmayaraq, heç zaman Aİ və ABŞ-dan bu formada qeyd-şərtsiz dəstək almayıb.

Göründüyü kimi, Avropa İttifaqı və ABŞ tərəfindən bu kimi fəaliyyətlər açıq şəkildə birtərəfli və qərəzli xarakter daşıyır və ikili standart yanaşmasına əsaslanır. Bu konfrans isə öz növbəsində, erməni tərəfini xoş niyyətlə danışıqlara sövq etmək əvəzinə, regionda yeni bölücü xətlər və dırnaqarası təsir dairələri yaradır.



Beləliklə, Cənubi Qafqaz regionunun aparıcı siyasi-iqtisadi aktoru olan Azərbaycan açıq şəkildə bu görüşün bölgədə qeyri-adekvat durum yaradacağını bildirir və Ermənistanı yeni münaqişəyə həvəsləndirəcəyini vurğulayır. Bu isə yolverilməzdir. 30 ildən sonra bölgədə yaranan sabit və ədalətli mənzərənin yenidən pozulması, Ermənistanın havadarlarının əli ilə yenidən fərqli arzulara düşməsi, təxribatxarakterli planlar hazırlaması Cənubi Qafqazdakı sabitliyi təhlükə qarşısında qoyur. Bu isə öz növbəsində bölgədə reallaşmış və reallaşması nəzərdə tutulan qlobal layihələr üçün mühüm təhdiddir.

### Azərbaycanın qlobal siyasi məkandakı yeri...

Vurğulandığı kimi, Azərbaycan regional lider kimi bu 5 aprel görüşü ilə bağlı mövqeyi aydındır. Eyni zamanda, öz maraqları xatirinə Ermənistanı "dəstəkləyən" ABŞ-Ai cütlüyü də anlayır ki, indiki dövrdə Azərbaycanın mövqeyini nəzərə almadan bölgə ilə bağlı hər hansı bir hərəkətlənmə mümkün ola bilməz. ABŞ Dövlət katibi Entoni Blinkenin Prezident İlham Əliyevə zəng etməsi bu reallağı aydın şəkildə ortaya qoyur. Bəlli olduğu kimi, hazırda prezident Baydenin mövcud vəziyyətində dövləti faktiki idarə edən Blinken Azərbaycan dövlət başçısına zəng edərək mövqelərini izah etməyə çalışıb. Blinken aprelin 5-də ABŞ, Avropa İttifaqı və Ermənistan arasında keçiriləcək üçtərəfli görüşün Azərbaycan tərəfdə narahatlıq doğurduğuna dair xəbərlər aldığını və bu xüsusda Prezident İlham Əliyevlə danışaraq məsələyə aydınlıq gətirilməsini vacib hesab etdiyini deyib. Dövlət katibi sözügedən görüşün əsas mahiyyətinin Ermənistanın iqtisadi inkişafı məsələlərinin təşkil edəcəyini diqqətə çatdırıb.

Bu məqam ilk olaraq özündə Azərbaycanın son illərdə qlobal müstəvidə qazandığı yeri bir daha müəyyənləşdirir - ABŞ dövlət katibinin Azərbaycan Prezidentinə zəng edərək ölkəsinin mövqeləri ilə abğıl izah verməsi Prezident İlham Əliyevin qlobal müstəvidə nüfuzunun və çəkisinin göstəricisidir. Bu, ölkəmizin başçısının qlobal məkanda müstəqil Lider kimi oynadığı rolu, dövlətinin maraqlarını hər zaman xüsusi qətiyyətlə qoruduğunun açıq nümunəsidir.

# Mina terroruna “Yox!”

Hər il beynəlxalq ictimaiyyət 4 Aprel - Beynəlxalq Mina Xəbərdarlığı və Minatəmizləmə Fəaliyyətinə Yardım Günü ərəfəsində bütün dünya üzrə bir daha amansız mina terroru barədə həyəcan təbili çalır. Ən ağlagəlməz yerdə hərbçilərlə, ağır texnika ilə yanaşı, mülki insanları və digər canlıları da qəfil yaxalaya biləcək ölüm saçan minalar müharibə dəhşətlərini bütün cəhətləri ilə ortaya qoyur. Bəli, ədalətsiz müharibələr insanlıq əleyhinə cinayətdir, ölüm-itimdir, qanqadadır, arxasınca dağıntılar, səfalət, insanların dinc həyatının pozulması, ev-eşiklərindən məhrum qalmaları, doğmalarından ayrı düşmələri kimi fəsadlar gətirir. Minalar isə saysız-hesabsız müharibə cinayətlərinin kuliminasiyasıdır. Verilən hesabatlara əsasən, hər il dünyada təxminən 10 minədək insan mina təhlükəsinin qurbanına çevrilir. Sədd heyif ki, tərəqqipərvər bəşəriyyət, Birləşmiş Millətlər Təşkilatı (BMT) mina təhlükəsinə “Yox!” desə də, müharibə tərəfi olan ayrı-ayrı dövlətlər özlərinin məkrli planlarını həyata keçirmək üçün qeyri-humanist davranaraq əraziləri kütləvi şəkildə minalayırlar.

## İşğalçı Ermənistanın bitib-tükənməyən müharibə cinayətləri

Təxminən otuz il ərzində havadarlarının dəstəyinə arxalanmaqla Azərbaycan ərazilərini işğal altında saxlayan ermənilərin özləri barədə saxta miflər düzəltmələri hər kəsə bəllidir. Belə uydurma miflərdən biri də guya ermənilərin “mədəni və humanist xalq” olmaları ilə bağlıdır. Ancaq qonşu dövətə qarşı ədalətsiz müharibəyə başlamaları, onun ərazilərini işğal altına almaları və burada ağlasığmaz vandalizm əməlləri törətmələri, uşaqlar, qocalar, qadınlar da daxil olmaqla mülki insanları belə xüsusi amansızlıqla qətlə yetirmələri, tarixi-mədəni abidələri dağıtmaları, sərvətləri talamaları ermənilərin “mədəni, humanist xalq” iddialarının hansısa bir əsası olmadığını ortaya qoyur.

Müharibənin də öz qayda-qanunları var. Tərəflər güclərini döyüş meydanında göstərmə-lidirlər. Ancaq erməni hərbçiləri birinci və ikinci Qarabağ müharibələrini özlərisayağı aparıblar. Onlar açıq döyüşlərdə hər hansı bir şücaət, qəhrəmanlıq göstərməyiblər. Verilən məlumatlara görə, 44 gün davam edən ikinci Qarabağ müharibəsi zamanı qarşı tərəfin ordusunda 11 min fərari qeydə alınıb.

Döyüş meydanlarında Azərbaycan Ordusunun qarşısında duruş gətirə bilməyən erməni hərbçiləri ağır silahları şəhər və kəndlərimizə, mülki insanlara tuşlayıblar. Ermənilərin 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalını yer üzündən silmələri, burada 613 dinc sakini qətlə yetirmələri bəşəri cinayətdir. Erməni hərbi birləşmələri bu kimi müharibə cinayətlərini İkinci Qarabağ müharibəsi günlərində də eyni amansızlıqla davam etdirdilər. Azərbaycanın Gəncə şəhəri keçmiş təmas xəttindən çox-çox uzaqda yerləşir. Ancaq bu şəhər, eləcə də Bərdə, Tərtər və digər yaşayış məntəqələrimiz, dəmək olar ki, hər gün qadağan olunmuş silahlardan atəşə məruz qalırdı və dinc sakinlər qətlə yetirilir mülki infrastruktur dağıdılırdı. Postmüharibə dövründə işğaldan azad edilmiş ərazilərdə aşkarlanan kütləvi məzarlıqlar erməni vandalizminin sərhəd tanımadığını bir daha təsdiqləyir. Sonuncu belə kütləvi məzarlıqlar elə bu günlərdə Xocalı rayonunun ərazisində üzə çıxarılıb.

## Azərbaycan dünyada minalar ilə ən çox çirklənmiş ölkələr sırasında

Amansız mina terroru ermənilərin müharibə cinayətlərinin ən qanlı səhifələrindən birini təşkil edir. Mənfur düşmən ərazilərimizi işğal altında saxladığı üç onillik ərzində şəhər və kəndlərimizi dağıtmaqla yanaşı, həm də ən ağlagəlməyən yerləri belə minalayıb. Ermənistanın məqsədyönlü siyasəti nəticəsində Azərbaycan hazırda dünyada minalar və partlamamış hərbi sursatlar ilə ən çox çirklənmiş ölkələr sırasında yer alır.

Statistika heyrət doğurur. İşğal dövründə torpaqlarımıza ilkin qiymətləndirmələrə görə 1,5 milyondan artıq mina basdırılıb. Ermənilər Azərbaycan torpaqlarında minabasdırma əməliyyatlarının növbəti mərhələsini 10 noyabr 2020-ci il tarixində üçtərəfli Bəyanat imzalandıqdan sonra həyata keçiriblər. Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin 4 Aprel - Beynəlxalq Mina Xəbərdarlığı və Minatəmizləmə Fəaliyyətinə Yardım Günü ilə bağlı yaydığı bəyanatda geniş faktlar təqdim olunub. Sənəddə oxuyuruq: “44 günlük Vətən müharibəsi və münaqişənin bitməsindən sonra belə Ermənistan üzərinə götürdüyü öhdəliklərinə zidd olaraq, Laçın yolundan qeyri-qanuni məqsədlər, o cümlədən mina təhdidinin davam etdirilməsi məqsədilə istifadə edib. 2022-ci ildə Laçın və Kəlbəcər rayonlarının ərazisində 2021-ci il Ermənistan istehsalı olan 2700-dən çox piyada əleyhinə minanın aşkar edilməsi bu faktı təsdiqləyir. 2023-cü ilin sentyabr ayında antiterror tədbirlərindən sonra, Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində və bu ərazilərin perimetrləri boyunca 500 mindən artıq mina basdırıldığı faktının aşkarlanması bu təhdidin miqyasını sübut edən faktlardır. Bu, eyni zamanda, son onilliklər ərzində Ermənistan tərəfindən guya minaların istehsal və ixrac olunmadığı barədə bəyanatların heç bir əsasının olmadığını nümayiş etdirib”.

Ermənistan tərəfindən davam etdirilən mina təhdidi nəticəsində demək olar ki, gündəlik əsasda baş verən mina partlayışları zamanı postmünaqişə dövründə ümumilikdə 350 nəfər azərbaycanlı mina qurbanına çevrilib. Onlardan 50 nəfər mülki şəxs, 15 nəfər hərbi qulluqçu olmaqla, 65 nəfər həlak olub. Ümumilikdə, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün başladığı dövrdən indiyədək 3429-a yaxın vətəndaşımız minalardan zərər çəkib, onlardan 595-i həyatla birdəfəlik vidalaşıb. Mina qurbanlarının 357-sini uşaqlar, 38-ini isə qadınlar təşkil edir.

İndiyədək baş vermiş mina hadisələrinin coğrafiyası, onların əksəriyyətinin keçmiş təmas xəttindən kənarda, xüsusilə mülki obyektlərin, yaşayış məntəqələrinin, habelə məzarlıqların yerləşdikləri məkanlarda baş verməsi Ermənistanın mina təhdidinin məqsədyönlü şəkildə mülki əhali arasında itkilərin çox olmasına yönəldiyini sübut edir. Bu da öz növbəsində Ermənistan tərəfindən azərbaycanlılara qarşı mövcud etnik nifrət və dözümsüzlüyün növbəti təzahürüdür.




## Humanitar minatəmizləmə...

Azərbaycan 2030-cu ilədək olan dövrü əhatə edən yeni strateji mərhələdə Vətən müharibəsində işğaldan azad edilən ərazilərə Böyük Qayıdışı təmin etməyi özünün 5 əsas prioritetindən biri kimi müəyyənləşdirib. Lakin bu strateji hədəfə çatmaq üçün ilk növbədə ərazilər minalardan təmizlənməlidir. Bunu Prezident İlham Əliyev hökumətin qarşısına əsas vəzifələrdən biri kimi qoyub. Ancaq mina təhlükəsi azad olunmuş ərazilərdəki genişmiqyaslı bərpa və yenidənqurma işlərini, insanların öz doğma torpaqlarına qayıdışı prosesini ləngidir, onların həyat və sağlamlığına ciddi təhdid yaradır.

Hazırda işğaldan azad olunmuş ərazilərdə minatəmizləmə işləri müvafiq qurumlar tərəfindən koordinasiyalı şəkildə həyata keçirilir. Minatəmizləmə fəaliyyətinin 90 faizindən çoxu Azərbaycanın daxili resursları hesabına aparılır. Bəzi xarici tərəfdaşlarla əməkdaşlıq edilsə də, ümumilikdə xaricdən dəstək məhduddur.

Humanitar minatəmizləmə Azərbaycanın dövlət siyasətinin əsas prioritetlərindən birini təşkil edir. Bu siyasətin əsası ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə qoyulub. Məhz onun uzaqgörənliyi nəticəsində 25 il əvvəl ANAMA yaradılıb. Prezident İlham Əliyevin 2021-ci il 15 yanvar tarixli 1251 saylı Fərmanı ilə 1998-ci ildə Heydər Əliyevin Sərəncamı ilə təsis edilmiş Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin əsasında publik hüquqi şəxs statuslu Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) formalaşdırılıb.

ANAMA ölkə daxilində həyata keçirilən bütün minatəmizləmə ilə bağlı olan fəaliyyəti əlaqələndirmək, nəzarət etməklə bərabər, həm də səlahiyyətli orqan olaraq, hökumətin bu sahə üzrə əsas icraçı qurumudur. Onun başlıca məqsədi Azərbaycan Respublikasının işğaldan azad edilən və müharibənin təsirinə məruz qalan ərazilərinin mina və partlamamış hərbi sursatların təhlükəsindən azad etmək, sosial-iqtisadi və humanitar inkişafa dəstək göstərməkdir. Bu günlərdə qurum işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən humanitar minatəmizləmə əməliyyatları ilə bağlı aylıq məlumat yayıb. Bildirilib ki, azad olunan ərazilərdə təkcə mart ayı ərzində 114 tank əleyhinə mina, 299 piyada əleyhinə mina, 1254 partlamamış hərbi sursat (PHS) aşkarlanıb və zərərsizləşdirilib. Həmçinin, 6094.6 hektar ərazi minalardan təmizlənib

Azərbaycan qlobal səviyyədə də humanitar minatəmizləmə prosesinə özünün davamlı töhfələrini verir. 2023-cü ilin mayında Ağdamda “Mina təhlükəsi ilə mübarizə - dayanıqlı inkişafa gedən yol” mövzusunda beynəlxalq konfransın keçirilməsi, Prezident İlham Əliyevin konfrans iştirakçılarına müraciət ünvanlaması Azərbaycan dövlətinin mina terroruna qarşı qətiyyətli siyasi iradəsinin ifadəsidir.

## Beynəlxalq ictimaiyyət biganə qalmamalıdır

“Ermənistan tərəfindən mina təhdidinə münasibətdə sərgilənən davranış postmünaqişə dövründə bölgədə dayanıqlı sülh və etimad quruculuğu istiqamətində görülən tədbirlərə daha bir zərbədir”. Bu fikirlər Xarici İşlər Nazirliyinin yuxarıda xatırlatdığımız bəyanatında yer alıb. Sənəddə vurğulanır ki, ölkəmiz tərəfindən bu təhdidə son qoymaq məqsədilə minalanmış ərazilərin xəritələrinin Ermənistan tərəfindən təqdim edilməsinə dair dəfələrlə çağırışlara baxmayaraq, bu ölkə uzun bir müddət ərzində ümumiyyətlə belə xəritələrin mövcudluğunu inkar edib. Beynəlxalq ictimaiyyət tərəfindən göstərilən təzyiqlər nəticəsində təqdim olunmuş, minalanmış ərazilərin kiçik bir hissəsinin əhatə olunduğu məlumatların etibarlılığı isə cəmi 25 faiz təşkil edib.

Azərbaycan Xarici İşlər Nazirliyi beynəlxalq ictimaiyyətə çağırış edib. “4 Aprel - Beynəlxalq Mina Xəbərdarlığı və Minatəmizləmə Fəaliyyətinə Yardım Günündə Azərbaycan bir daha beynəlxalq ictimaiyyəti Ermənistanın mina təhdidini qınamağa, bu ölkə tərəfindən mina xəritələrinin təqdim olunması, eləcə də Azərbaycanda mina təhdidinin aradan qaldırılması istiqamətində dəstək göstərmək məqsədilə ardıcıl tədbirlər görməyə çağırır”, - deyə bəyanatda qeyd edilib.

*Mübariz ABDULLAYEV*

# “Bu addım Qafqazı geosiyasi münaqişələr meydanına çevirəcək” -

## Türkiyədən Ermənistan, Aİ və ABŞ görüşü barədə BƏYANAT

2024-cü il aprelin 5-də Brüsseldə keçirilməsi planlaşdırılan Ermənistan, Aİ və ABŞ arasında üçtərəfli görüşün regiondakı mürəkkəb problemlərin həlli üçün əsas götürülməli olan neytrallıq yanaşmasına zərbə vuracaq.

Bu barədə Türkiyə Xarici İşlər Nazirliyinin bəyanatında deyilir.

Qeyd olunub ki, Azərbaycanın iştirakını nəzərdə tutmayan bu təşəbbüs Cənubi Qafqazda sülhə xidmət etmək yerinə bölgənin geosiyasi münaqişələr meydanına çevrilməsinə yol açacaq.

“Üçüncü ölkələri proses kontekstində atacaqları addımlarda regionun xüsusiyyətlərini nəzərə almağa və tərəflərə eyni məsafədən yanaşmağa çağırışımızı bir daha təkrar edirik. İnanırıq ki, Cənubi Qafqaz regionda bərqərar olacaq daimi sülh və sabitlik əsasında yüksələcək və layiq olduğu regional rifaha nail olacaq. Türkiyə həmişə olduğu kimi bu məsələdə üzərinə düşəni etməyə davam edəcək və Azərbaycanla Ermənistan arasında daimi sülhün əldə olunması üçün tarixi fürsətdən istifadəni təşviq etməyə davam edəcək”, - deyə bəyanatda vurğulanıb.

Həmçinin əlavə olunub ki, Azərbaycanın İkinci Qarabağ müharibəsində zəfəri ilə işğal olunmuş torpaqların azad edilməsi və 19-20 sentyabr 2023-cü il tarixlərində Qarabağda həyata keçirilən antiterror əməliyyatı ilə bütün ölkə üzərində suverenliyinin bərpası nəticəsində regionda daimi sülh və sabitliyin bərqərar olması üçün tarixi fürsət yaranıb:

“Bu tarixi fürsətin uğurla nəticələnməsinə çox yaxın olduğumuz bir vaxtda üçüncü tərəflərin, xüsusən də qeyri-regional aktorların prosesə ədalətli və qərəzsiz yanaşması, prosesə zərər vurmamaq üçün ehtiyatlı olması daha da vacib olub”.

# Region ölkələri niyə susur?

## “Hərbi pakt” bölgənin kabusuna çevrilə bilər...

### Tehran açıq etirazla çıxış etməlidir

Bu gün keçirilməsi planlaşdırılan “görüş” fonunda Qərbin bölgəyə qarşı hərəkətlənməsi yalnız Azərbaycana qarşı xarakter daşımır - bütövlükdə, regionun maraqlarını təhdid edir. Bütün bu proseslər Qərbin açıq düşmən kimi gördüyü İranın susqunluğu şəraitində baş verir. İran sanki sərhədlərində ABŞ və Aİ-nin hərbi bazasının qurulduğunu görmür və ya görməzdən gəlir. Təsadüfi deyil ki, regiona yönəlik təhdidlərlə bağlı bir müddət öncə İran tərəfi öz narahatlığını dilə gətirmişdi. İranın müdafiə naziri Məhəmməd Rza Aştiani ilə erməni həmkarı Suren Papikyan arasındakı görüşdə Aştiani açıq şəkildə bildirmişdi ki, bölgəyə kənar dövlətlərin hərbi birləşmələrini cəlb etmək əks təsir göstərə bilər. M. R. Aştiani vurğulamışdı ki, regionu kənar dövlətlərin geosiyasi rəqabət meydanına çevirmək bölgənin bütün dövlətlərinin maraqlarına ziddir. Göründüyü kimi, İran özü də etiraf edir ki, Ermənistanın “əməkdaşlıq” pərdəsi altında ABŞ və Aİ-nin hərbi gücünü bölgəyə yerləşdirməsi Tehranın planlarına uyğun deyil. Bəli, İran bu məsələdə xüsusilə ehtiyatlı davranmalıdır. Perspektivdə həmin bölgəyə yerləşdirilən qüvvələrin məhz rəsmi Tehran üçün rəqiblərinin cızdığı yeni planlar olma ehtimalı da formalaşa bilər. Bu gün İrana qarşı aktiv sanksiyalar və embarqolar tətbiq edən Aİ, ABŞ, kollektiv Qərb onsuz da “mülki missiya” adı altında onun sərhədlərinin kənarında kəşfiyyat işləri aparır. Yeni dönəmdə Ermənistanın “hərbi pakt” üzərindən ABŞ və Aİ-ni leqal şəkildə öz sərhədləri daxilinə buraxması isə Tehrana qarşı hərbi planların aktiv fazaya qədəm qoymasını belə mümkün edə bilər. Burada ən diqqətçəkən məqam isə İranın maraqlarının təhlükə qarşısında olduğu bir məqamda İranın Ermənistandakı səfirinin Fransa səfiri ilə birgə Qərbi və Paşinyan rejimini tərənnüm etməklə məşğul olmasıdır. Axı qeyri-region dövlətlərinin regiona müdaxiləsi İran üçün həmişə “qırmızı xətt” sayılıb. Necə olur ki, İranın səfiri özünü Qərbin maraqlarının ifadəçisi kimi aparır. Bu, həm də İranın maraqlarına xəyanət deyilmi?

### Gürcüstan mövqeyini bildirməli, Rusiya isə susmamalıdır...

Eyni zamanda, Qərbin region üçün Ermənistan üzərindən hesabladığı “perspektiv” Cənubi Qafqazda Ukrayna xətti kimi ikinci cəbhə və yeni ayırıcı xətlər yaratmağa hədəflənib. Bu məsələ olduqca ciddi mahiyyət daşıyır və bütün bölgə bu məsələdə mövqeyini açıq şəkildə bildirməyə məcburdur - eyni zamanda, qərbpərəst siyasət yürüdən Gürcüstan da öz mövqeyini bəlli etməlidir. Azərbaycan ilə strateji əlaqələrə malik, Orta Dəhlizin əsas seqmentlərindən sayılan, regional layihələrlə birgə özünün də maraqları təhlükə qarşısına düşən Gürcüstan regionda Azərbaycanla birlikdə olmalıdır.




Bu məsələnin reallaşması, eyni zamanda, Rusiyanın regiondakı maraqlarını təhdid altına salır. Proseslər sonda Ermənistandakı Rusiya hərbi bazasının çıxarılması ilə nəticələnə bilər, Moskva isə baş verənlərə hələ də ciddi reaksiya göstərmir. Axı, 32 ildən sonra Ermənistanın Rusiya sərhədçilərinin “Zvartnots” aeroportundan çıxarılması üçün Moskvaya rəsmi məktub göndərməsi də məhz bu planın tərkib hissəsidir. Rusiya Ermənistanda gedən proseslərlə heç vaxt barışmamalıdır. Vaxt isə Kremlin əleyhinə işləyir. Ukraynada uzun müddət gözləmə mövqeyində olan Rusiya nəticədə Ukraynanı itirdi və indiki vəziyyətə düşməli oldu. Ermənistanla bağlı məsələyə də eyni “susqunluqla” yanaşması Rusiyanın özünün milli maraqları üçün böyük təhdiddir.

### Ermənistan siyasi-hərbi iflasın eşiyindədir...

Ermənistan isə ikinci Ukrayna və ya Suriya olmağın bir addımındadır. Regionda hazırda ən zəif halqa sayılan İrəvan anlamalıdır ki, “çətiri altına girməyə çalışdığı” Qərbə çox da arxayın olmamalıdır. ABŞ-da mümkün və gözlənilən yeni siyasi situasiyanın formalaşması Cənubi Qafqazı umumiyyətlə unutduracaq - Makron isə daima hər yerdə uduzmaqda davam edəcək.

Bu, Ermənistan üçün yolun sonu ola bilər. İlk növbədə Ermənistan bundan öncə ABŞ-ın və ya Aİ-nin təhriki ilə yerləşdiyi bölgələrdə qeyri-konstruktiv mövqe tutan ölkələrdən nümunə götürsün - onların düşdüyü vəziyyət, yaşadıqları göz önündədir. İndiyə qədər ABŞ və ya Aİ heç bir dövlətə səmimi şəkildə “dəstək” verməyib - bu “dəstəyin” altında korporativ maraqlar gizlənib. Ermənistan Əfqanıstan və Suriya kimi barıt çəlləyinə, terrorçuların, narkotrafikin cəmləşdiyi məkana çevriləcək. Azərbaycan regionda öz problemini həll edib, ərazi bütövlüyü və suverenliyini təmin edib. Azərbaycan heç bir halda Ermənistanın yenidən qalxmasına və regionda yeni münaqişə ocağının yaranmasına yol verməyəcək. Ermənistan yenə də təhlükəsizlik arxitekturasına təhdid yaradan amil rolunda çıxış etməklə “israrlı olarsa”, bu, rəsmi İrəvan üçün xoşagəlməz nəticələrə yol aça bilər. Rəsmi İrəvan başa düşməlidir ki, Azərbaycan bu gün regionun aparıcı siyasi-iqtisadi aktoru kimi qəbul olunur və sülhün imzalanması Ermənistanın da regional və qlobal əməkdaşlıq platformalarında iştirakını təmin edəcək. ABŞ və ya Aİ ilə yeni “hərbi pakta” girmək isə İrəvana dağıntı və sarsıntı, aclıq və səfalət, iqtisadi geriləmə və sosial böhran vəd edir...

*Pərviz*

# İlk dəfə...

## “Dinlərarası harmoniya” festivalı keçirilib

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi” istiqaməti üzrə hazırlanmışdır**

Ölkəmizdə dövlət-din münasibətləri modeli çərçivəsində bütün dini konfessiyalar qanun qarşısında bərabərdir və eyni statusa malikdir. Vətəndaşların əksəriyyətini təşkil edən müsəlmanların hüquqlarının təmin olunması ilə yanaşı, dövlət respublika ərazisində yaşayan digər din mənsublarına da yüksək qayğı göstərir. Qeyd edək ki, azsaylı katolik icmasının üzvləri də dövlət qayğısından kənarda qalmayıb.

Azərbaycanda antisemitizmə heç vaxt yer olmayıb və indi də yoxdur. Ölkəmizdə dəfələrlə dini dözümlülük, dinlərarası dialoq mövzularına dair beynəlxalq konfranslar, elmi simpoziumlar və s. tədbirlər keçirilib.

Yeri gəlmişkən, bu yaxınlarda Azərbaycanda fəaliyyət göstərən dini qurumların birgə təşkilatçılığı ilə Bakıda “Dinlərarası harmoniya” festivalı keçirilib. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsindən verilən məlumata görə, ölkəmizdə mənəvi dəyərlərin, tolerant və multikultural ənənələrin inkişafı və təbliği məqsədilə təşkil olunan festivalda Qafqaz Müsəlmanları İdarəsi, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası, Dağ, Avropa, Gürcü yəhudiləri, Roma Katolik Kilsəsinin Apostol Prefekturası, Azərbaycan Bibliya Cəmiyyəti (protestant yönümlü icmalar), Azərbaycan Bəhailəri Dini Mərkəzi, Alban-Udi Xristian dini icması, Krişna Şüuru, gürcü pravoslav, Molokan ruhani xristian və digər dini qurumların fəaliyyətini əks etdirən stendlər, sənədli film və videoçarxlar nümayiş etdirilib. Eyni zamanda işğaldan azad edilən ərazilərimizdə yerləşən tarixi-dini abidələr və ziyarətgahların işğal dönəmindəki və hazırkı vəziyyətindən bəhs edən “Qarabağ” stendi təqdim edilib.



Festivalda açılış nitqi ilə çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin vəzifələrini müvəqqəti icra edən Səyyad Salahlı bildirib ki, əsası Heydər Əliyev tərəfindən qoyulmuş dövlətin din sahəsindəki siyasətinin uğurlu icrası nəticəsində Azərbaycanda nümunəvi dövlət-din münasibətləri formalaşıb, dini etiqad azadlığı tam təmin edilib, eyni zamanda, dini dəyərlərə, ibadət yerlərinə xüsusi qayğı göstərilir: “Məhz görülmüş bu işlər və atılmış addımlar sayəsində Azərbaycanda dövlətlə dini qurumlar arasında münasibətlərin özünəməxsus modeli dünya ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir. Ümummilli Liderin əsasını qoyduğu bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, Azərbaycanda bütün xalqların və dinlərin nümayəndələrinin hüquqları, dini etiqad azadlığı təmin edilir, dini əqidəsindən asılı olmayaraq, dövlət hər bir vətəndaşına eyni dərəcədə diqqət və qayğı göstərir, insanlarımız bir-birinə tolerant yanaşırlar”.

DQİDK sədrinin müavini Səyavuş Heydərov çıxış edərək bildirib ki, nümunəvi tolerantlıq və multikulturalizmin hökm sürdüyü, dinc birgəyaşayış və dialoq mədəniyyətinin, mənəvi harmoniyanın mövcud olduğu Azərbaycan müxtəlif sivilizasiyalar arasında tarixən oynadığı mənəvi körpü rolunu dövlət başçımızın qlobal təşəbbüs və səyləri, siyasi iradəsi sayəsində layiqli şəkildə həyata keçirir: “Bu gün Azərbaycanda digər xalqların mədəniyyətləri ilə zənginləşmiş yeni tipli bir mədəniyyət formalaşıb. Bu mədəniyyət Azərbaycanda birgəyaşayışa, çoxmillətli cəmiyyətin harmoniyasına, multikultural dəyərlərin ön mövqeyə çəkilməsinə, dinlərarası harmoniyanın möhkəm üzvi sintezinin yaranmasına gətirib çıxarıb. Bu da həmrəylik, ictimai-siyasi cəhətdən möhkəm Azərbaycan modelini ortaya qoyub. Dünyada baş verən hadisələrə, problemlərə nəzər salanda görürük ki, bu problemlərin həll edilməsi üçün sivilizasiyalararası, dinlərarası, mədəniyyətlərarası dialoq olduqca mühümdür”.

“Müxtəlifliyin qorunması: 2024-cü ildə islamafobiya ilə mübarizə” konfransında iştirak etmək məqsədilə ölkəmizə səfər edən ABŞ Müsəlman Təşkilatları Şurasının Baş katibi Ussama Əli Cammal, Pakistan Müsəlman İnstitutunun direktoru Sahibzadə Sultan Əhməd Əli, “Haider Global BVBA Brüssel” şirkətinin baş direktoru Səccad Kərim, İslam Əməkdaşlıq Təşkilatının İslam tarixi, incəsənəti və mədəniyyəti üzrə araşdırma mərkəzinin Baş direktoru Mahmud Erol Kılıç, Din Azadlığı üzrə Amerika Mərkəzinin baş direktoru Cannah Skott çıxış edərək, ölkəmizin tolerantlıq məsələləri üzrə ardıcıl dialoqu təmin edən mədəniyyətlərarası platforma, dinlərarası etimad, harmoniya və missionerlik daşıyıcısı olduğunu diqqətə çatdırıblar.

Qonaqlar festival çərçivəsində Azərbaycandakı dünyaya örnək tolerantlıq mühiti və dünyəvilik modelinə əyani şahidlik imkanı əldə etdiklərini, Prezident İlham Əliyevin multikultural siyasəti və görüşünü təqdir etdiklərini dilə gətiriblər.

***Günel ABBAS***

# Aşağı uçot dərəcəsi, bahalı kreditlər...

Məlum olduğu kimi Mərkəzi Bankın (MB) İdarə Heyətinin qərarı ilə uçot dərəcəsi 2024-cü il martın 29-dan etibarən 7,75%-dən 7,5%-ə, faiz dəhlizinin yuxarı həddi 8,75%-dən 8,5%-ə endirilib. Faiz dəhlizinin aşağı həddi isə dəyişməyərək 6,25% saxlanılıb. MB bu qərarı aşağı inflyasiya həddinin saxlanması, 2024-cü ilin ilk 2 ayında inflyasiya gözləntilərinin stabilləşməsi və qarşıdakı yaxın aylarda sabit qiymət indeksinin davam edəcəyi proqnozlarına əsasən qəbul edib. Eyni zamanda, 2024-cü ildə proqnozlaşdırılan inflyasiyanın hədəf diapazonda saxlanılması gözlənilir və faiz dəhlizinin və uçot dərəcəsinin hətta qarşıdakı aylarda yenidən azaldılması istisna edilmir. Çünki xarici və daxili amillərin ilin sonuna kimi əlverişli olacağı və inflyasiyanın normal həddə saxlanılacağı proqnozlaşdırılır ki, bu da Mərkəzi Bankın uçot dərəcəsini bir qədər də aşağı salmasına qərar verməsini şərtləndirə bilər.

**Uçot dərəcəsinin azaldılması kredit faizlərinin aşağı salınmasına imkan verə bilərmi?**

Mərkəzi Bankın son qərarından sonra vətəndaşları qayğılandıran əsas məsələlərdən biri bank kreditlərinin də aşağı salınacağı ilə bağlıdır. Çünki 7-8 faizlik dəhliz kreditlərin də müəyyən faiz nisbətində endirilməsinə imkan yaradır. Son bir ildə, MB uçot dərəcəsini bir neçə dəfə aşağı salıb, faktiki olaraq faiz dəhlizi 10 faizdən 7,5-ə faizə qədər endirilib. Bu bir il ərzində isə bankların kredit faizləri olduğu kimi qalıb, bəzi banklar faizləri cüzi - təxminən 1-1,5 faiz endirib. Bu, uçot dərəcəsinin enmə nisbətinə rəğmən çox azdır.



Beynəlxalq bank sektorunda, xarici bank bazarında adətən Mərkəzi Banklar uçot faiz dərəcəsini azaltdıqda, kredit faizlərində də enmələr müşahidə olunur. Ölkəmizdə isə sabit kredit stavkaları müşahidə olunmaqdadır. Bunun səbəbi faiz dəhlizinin aşağı salınmasından daha çox qiymətli kağızlar bazarını, notları və digər səhmlərin optimal gəlirliyini qoruyub saxlamaq və ya artırmaqdır. Kredit bazarı isə bankların öz səxavətindən asılı vəziyyətdədir.

Hazırda ölkə üzrə kreditlərin orta faizi təxminən 15-16 faizdir. Hətta, bundan yüksək faiz dəhlizi mövcuddur, xüsusilə də regionalarda 19 faizə çatır. Məsələn, Şirvanda 19.67, Qarabağda 19.32, Mil-Muğan iqtisadi rayonunda 19.13, Lənkəran-Astara iqtisadi rayonunda 19.1, Şirvan-Salyan iqtisadi rayonunda 18.75, Mərkəzi Aranda 18.59, Qazax-Tovuz iqtisadi rayonunda 18.42 faizdir. Halbuki bankların kreditləri aşağı salması üçün kifayət qədər imkanları var. Bankların kredit vermək üçün əsas mənbələrindən biri olan depozitlərin faizləri də buna imkan verir. Hazırda banklarda dollar fazilәri 2-2,5 %-dən yüksək deyil, manat əmanətləri üzrə orta faiz dərəcəsi isə 7-8,5 %-ə bərabərdir. Ölkədə 4-5 bank əmanətləri 10 faizlə cəlb etsə də, əksər banklarda bu rəqəm 7-8, hətta 6 faiz təşkil edir. Ümumilikdə, hazırda depozitlərin orta faiz göstəricisi 8%-ə bərabərdir və kreditlərin orta illik faiz dərəcəsindən 2 dəfə aşağıdır. Buna görə də, kredit dərəcələrini ən azı 3-4 faiz endirmək olar.

Hazırda Azərbaycan banklarının kredit portfeli də hədsiz dərəcədə böyükdür və kredit vermək üçün qayğıları yoxdur. Bank sektorunun xalis mənfəəti son bir ildə əhəmiyyətli dərəcədə böyüyərək 1 milyard 75,9 milyon manata çatıb. Bu həcmdə mənfəət bankların kredit resurslarını təmin etməkdə nəhayətsiz portfelə malik olmasını təsdiqləyir. Banklar 2023-cü ildə kredit portfelinin az qala 50 faizə yaxın artması da onların kredit vermək çətinliyinin olmadığını göstərir. Həmçinin, 2024-cü il yanvarın 1-dən qüvvəyə minən Vergi Məcəlləsinə dəyişikliklərdən sonra (102.1.22-ci maddə) yerli banklar və xarici bankların Azərbaycan Respublikasında fəaliyyət göstərən filialları tərəfindən fiziki şəxslərin əmanəti üzrə ödənilən illik dividend gəlirləri gəlir vergisindən (10 faiz vergi) azad edilib və vergi güzəştləri banklar üçün yeni bir stimul yaradıb, vətəndaşların banklara daha çox əmanət qoyması təşviq edilməkdədir. Bu isə bankların daha çox qazanmasına, yəni kredit portfellərini daha da böyütməsinə səbəb olmaqdadır. Yəni bankların mövcud resursları ucuz kredit siyasətini həyata keçirməyə imkan verir, bahalı kreditlər üçün heç bir əsas yoxdur.

Bütün bunlar onu deməyə əsas verir ki, uçot stavkasının qənaətbəxş, bankların cəmi kredit resurslarının həcminin əlverişli olması banklar üçün kreditləri ucuzlaşdırmağa stimul verə bilər. Reallıq ondan ibarətdir ki, banklar dövlətin verdiyi resurslar hesabına, yəni Sahibkarlara Kömək Fondu və digər dövlət mənbələri ilə güzəştli kreditlərdən başqa, öz resursları hesabına 5 dəfə daha çox real sektora ucuz fazilərlə kredit yönəldə bilər. Mövcud iqtisadi şərait, bank sektorunun vəziyyəti, həyata keçirilən kredit siyasəti və digər amillər isə bank kreditlərinin bahalaşmasını deyil, əksinə daha da aşağı salınmasım diktə edir. Ona görə də, banklar kredit faizlərini daha da aşağı salmalı, iqtisadi dəyər yaradan sahələrin təşviqində güzəştli kredit həcmlərini və çeşidlərini artırmalıdır.

***Elbrus***

# İpoteka ilə bağlı hansı yeniliklər gözlənilir?

Məlum olduğu kimi “İpoteka haqqında” qanuna yeni dəyişikliklər layihəsi Milli Məclisə təqdim olunub və parlamentin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında və plenar iclasda birinci oxunuşda müzakirələr zamanı müsbət qarşılanıb. Dəyişikliklər əsas etibarilə ölkədə əhalinin mənzilə olan tələbatını ödəmək, yaşayış şəraitini yaxşılaşdırmaq məqsədilə ipoteka kreditlərinə çıxışın asanlaşdırılmasını nəzərdə tutur.

Layihədə dəyişikliklərin əsas detallarından biri müvəkkil bank tərəfindən ipotekaya xitam verilməsi zamanı əmlakın ipoteka sahibində, yəni vətəndaşın sərəncamında qalmasının təmin olunmasıdır. Çünki hazırda varisliklə bağlı bir çox problemlər qaldığından bu məsələ banklar üçün hüquqi çətinliklər yaradır. Hazırkı qanuna əsasən əmlak və mənzil ipotekanı verən qurumun, bankın və ya İpoteka və Kredit Zəmanət Fondunun sərəncamında qalır. Ona görə də, varis ipoteka kreditini ödəməkdən imtina etməsinin dəyişikliklər paketində hüquqi həllini tapması təklif olunur.



Bu sahədə meydana çıxan məsələlərin tənzimlənməsi məqsədilə, Konstitusiya Məhkəməsi Plenumunun müvafiq qərarlarında təsbit olunan hüquqi mövqelərə uyğun olaraq yeni mexanizm hazırlanıb və layihədə ipoteka saxlayanın tələbdən və ya ipotekadan imtina etməsi halı öz əksini tapıb. Təklif olunan dəyişikliyə əsasən, zaminlik müqaviləsi ilə təmin edilmiş öhdəlik üzrə zaminin subsidiar məsuliyyəti nəzərdə tutulmuşdursa və müqavilə qüvvədə olduğu müddətdə borclu şəxs vəfat edərsə, bu halda borclunun öldüyü gündən mirasın qəbul edildiyi günədək müddətdə zaminin məsuliyyəti dayandırılır. Bu hüquqi nizamlamadan irəli gələrək, eyni zamanda, Mülki Məcəllənin 316-cı maddəsində müvafiq dəqiqləşmənin aparılması da nəzərdə tutulur.

Bundan başqa, digər sosial kateqoriyaların da kredit almasının sadələşdirilməsi təklif olunur. Bənna, zərgər, bərbər, çilingər və digər sahələr üzrə çalışanların ipoteka götürməsi üçün şərtlərin yumşaldılması, həmçinin, bölgələrdə yaşayanlara verilən ipoteka ilə paytaxtdakı ipoteka kreditləri arasında fərq tətbiq edilməsi təkliflər sırasındadır. Həmçinin, regionlarda yaşayan gənclərin mənzil təminatının yaxşılaşdırılması üçün dövlət vəsaiti hesabına güzəştli mənzillərin inşa edilməsi və onlara daha sərfəli kredit paketinin tətbiq olunması, eləcə də bəzi sosial qruplar üzrə ipoteka kreditlərinə çıxışının asanlaşdırılması üçün bəzi təkmilləşdirmələrin aparılması da təklif olunur.

Ümumilikdə, ipoteka kreditləşməsi üzrə edilən bütün dəyişikliklər müsbət xarakterli olmaqla vətəndaşların mənafeyinə xidmət edir. Eyni zamanda, ipoteka bazarında optimallaşmaya imkan verəcək pozitiv addım kimi səciyyələndirilə bilər. Çünki indiyə qədər ipoteka siyasəti təkmilləşdirilərkən, ancaq optimallaşma istiqamətində aparılıb və ötən dövr ərzində ipoteka kreditlərinə çıxış imkanlarının genişləndirilməsi məqsədilə ipoteka kreditlərinin şərtlərinin daim əhalinin ehtiyaclarına uyğun olaraq təkmilləşdirilməsi həyata keçirilib, şəxsi yığımları qənaətbəxş səviyyədə olmayan vətəndaşların mənzil təminatının yaxşılaşdırılması məqsədilə ipoteka kreditləri üzrə zəmanət mexanizminin tətbiqinə başlanılıb. Digər bir optimallaşma tədbiri kimi ipoteka kreditləri üzrə maksimal məbləğ 150 min manatadək, güzəştli ipoteka kreditləri üzrə maksimal məbləğ isə 100 min manatadək artırılıb. Nəticədə bu kreditləri almaq hüququ olan şəxslərin dairəsi genişlənib.

Eləcə də son illərdə iqtisadi və hüquqi situasiyaların dəyişməsi ilə əlaqədar olaraq ödəniş qabiliyyəti pisləşən borcalanların hüquqlarının müdafiəsi üçün ipoteka kreditlərinin restrukturizasiya mexanizmi yaradılıb. Bu siyasətin tərkib hissəsi kimi İpoteka və Kredit Zəmanət Fondu beynəlxalq ipoteka bazarlarındakı vəziyyəti və təcrübənin öyrənərək bu kreditlərindən faydalana biləcək şəxslərin dairəsinin genişləndirilməsi məqsədilə yeni ipoteka məhsullarının tətbiqini də nəzərdə tutur. Bu baxımdan qanun layihəsində nəzərdə tutulan təkliflər ipotekanın əsas tərəfdaşı olan vətəndaşların mənafeyinə xidmət etməklə, ümumi ipoteka siyasətinin yumşalmasına imkan verəcək.

***E.Cəfərov***

# Vaxt çatıb?

## Moskva üçtərəfli mexanizmlərinin dinamik fəaliyyətinin bərpa edilməsini istəyir

44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsindən sonra Azərbaycan dövləti Cənubi Qafqaz regionunun sülh və əməkdaşlıq məkanına çevrilməsi üçün təşəbbüslərlə çıxış edib. Ermənistanla sülh sazişi imzalamaq təklifi də ilk olaraq Azərbaycan tərəfindən verilib. Münaqişə başa çatdıqdan sonra xalqımızın uzun illər ərzində məruz qaldığı əzab-əziyyətə, məhrumiyyətlərə və dağıntılara baxmayaraq, Azərbaycan tərəfindən Ermənistanla davamlı sülhün təmin edilməsi istiqamətində fəal iş aparılır. Məqsəd regionun sülh və əməkdaşlıq məkanına çevrilməsidir.

Hazırda bölgədə sülhün təmin olunması məqsədilə bir sıra beynəlxalq platformalar çərçivəsində müzakirələr aparılır. Azərbaycan regionda sülhün bərqərar olması naminə irəli sürülən tərəfsiz və ədalətli beynəlxalq təşəbbüsləri dəstəkləyir. Məlumdur ki, beynəlxalq aktorların vasitəçiliyi ilə Azərbaycan və Ermənistan sülh sazişi üzrə müzakirələr aparır. Sülh sazişi üzrə iki ölkənin xarici işlər nazirləri arasında yeddi görüş keçirilib. Bu görüşlərin biri Cenevrədə, ikisi Moskvada, üçü Vaşinqtonda baş tutub. Sonuncu görüş isə bu ilin fevralında Almaniyanın təşəbbüsü ilə Berlin şəhərində baş tutub. Rəsmi Bakının sülh sazişinin imzalanması üçün təklifləri aydındır və bu təkliflər beynəlxalq hüquq normalarına əsaslanır.

Onu da qeyd etmək lazımdır ki, indiyə kimi Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesində əsasən Rusiya, Avropa İttifaqı və ABŞ vasitəçilik edib. Bu beynəlxalq aktorların vasitəçiliyi ilə hər iki ölkənin liderləri, eləcə də XİN başçıları müxtəlif vaxtlarda görüşüblər. O da məlumdur ki, İkinci Qarabağ müharibəsi Rusiyanın vasitəçiliyi ilə 10 noyabr 2020-ci ildə üçtərəfli Bəyanatının imzalanması ilə dayandırılıb. Bu bəyanatın imzalanmasından sonra Moskvanın vasitəçiliyi ilə liderlər bir neçə dəfə görüşüb, Soçi bəyanatı da imzalanıb, eləcə də regionda kommunikasiyaların bərpası üzrə Üçtərəfli İşçi Qrupu da yaradılıb. Avropa İttifaqının təşəbbüsü ilə tərəflər arasında ilk görüş isə 2021-ci ilin dekabrında baş tutub və bir neçə üçtərəfli görüş keçirilib. Eləcə də, ABŞ Azərbaycan və Ermənistan liderlərinin bəzi görüşlərində vasitəçi olub.

Lakin Azərbaycanın ötən ilin sentyabrında Qarabağdakı erməni separatizminə son qoymasından sonra ABŞ və Avropa İttifaqından ermənipərəst bəyanatların sayı artıb. Bu da rəsmi Bakının haqlı etirazına səbəb oldu. Rusiyanın vasitəçiliyinə gəlincə, Ermənistan rəsmi Moskvanın vasitəçilik təşəbbüslərindən imtina edir.

Yeri gəlmişkən, bugünlərdə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova brifinqdə bildirib ki, Bakı ilə İrəvan arasındakı bütün ərazi mübahisələri və iddiaları yalnız Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası üzrə ikitərəfli komissiya çərçivəsində siyasi-diplomatik vasitələrlə həll edilməlidir: “Biz öz tərəfimizdən buna hər cür kömək göstərməyə hazırıq. Hesab edirik ki, Rusiya-Azərbaycan-Ermənistan üçtərəfli mexanizmlərinin dinamik fəaliyyətini bərpa etməyin vaxtı çoxdan çatıb. Tərəfdaşlarımızı siyasi iradə göstərməyə, Rusiyanın köməyi ilə ən çətin məsələlərə, o cümlədən sərhədlərin delimitasiyası, bölgədəki nəqliyyat-logistika marşrutlarının açılması və sülh müqaviləsinin hazırlanması üçün səmərəli həll yollarının axtarışına imkan verən formatlarda səmərəliliyini sübuta yetirən əlaqələri bərpa etməyə çağırırıq”.

M. Zaxarova, həmçinin vurğulayıb ki, tərəflərdən birinin güzəştlərinin məhdudlaşdırılması, digər tərəfin isə ünvanına təhdidlərin irəli sürülməsi ilə məşğul olan Avropa İttifaqından və ABŞ-dan fərqli olaraq Rusiya həmişə Cənubi Qafqazda davamlı sülhün və firavanlığın təmin edilməsi üçün mövcud fikir ayrılıqlarının kompleks şəkildə, kompromisli həllinin tərəfdarı olub. Onun sözlərinə görə, bu təklif danışıqlar masasında qalmaqda davam edir.

Ümumiyyətlə, Azərbaycan ərazi bütövlüyünü və suverenliyini təmin etdikdən sonra qarşıdakı mərhələ regionda təhlükəsizlik arxitektirasının formalaşması istiqamətində inkişaf etməlidir. Bu, özlüyündə daha geniş anlam daşıyır. Ermənistanın sülhlə bağlı real münasibət nümayiş etdirəcəyi, təhdid olmaqdan vaz keçəcəyi təqdirdə özünün də yeni inkişaf mərhələsinə qədəm qoya bilər. Bunu anlayan və görən dünya birliyi məsələnin mahiyyətini də obyektiv şəkildə dəyərləndirməlidir. Çünki Azərbaycanın sülh üçün yaratdığı pozitiv imkanlar mühüm məqamlardan xəbər verir. Təbii ki, məsələnin real həllində maraqlı olan tərəflər həm də bu sülhün dayanıqlı olması üçün səy göstərməlidir. Bu gün Azərbaycan bölgənin yeni inkişaf mərhələsi naminə məhz dayanıqlı və əbədi sülhü təbliğ edir.



Bütün beynəlxalq aktorlar, o cümlədən da vasitəçilik etmək istəyən tərəflər anlayır ki, Azərbaycan Cənubi Qafqaz regionunun lideri və əsas siyasi-iqisadi oyunçusudur. Yeni dönəmdə Cənubi Qafqaz regionu ilə münasibətlərin sıxlaşdırılması, pozitiv gündəliyə töhfə verilməsi birbaşa Azərbaycanın iştirakı ilə realaşır. Bu isə qarşılıqlı tərəfdaşlığı daha da gücləndirən amil kimi çıxış edir. Təəssüfləndirici haldır ki, Ermənistan ötən dövrdə yalnız neqativ mövqe və addımları ilə yadda qalıb. Sülh sazişini imzalamağı uzadan İrəvan regionda kommunikasyaların açılmasına da əngəl olmaqda davam edir. Halbuki, 10 noyabr Bəyanatının 9-cu bəndi kommunikasiyaların açılmasıdır ki, burada Ermənistanın öhdəlikləri var. Lakin İrəvan bu öhdəlikləri yerinə yetirməkdən imtina edir. Təbii ki nəticə ortadadır - bu ölkənin qlobal miqyasda Azərbaycana qarşı formalaşdırmağa çalışdığı bütün kampaniyalar fiaskoya uğrayıb. Ermənistanın hakimiyyəti ilə yanaşı erməni diasporu və lobbisinin apardığı qarayaxma kampaniyası ifşa edilib. Təbii olaraq bu kimi hallar sülh ilə eyni məzmuna malik deyil, tam əksinə təşəbbüslərə zərbə vurur. Sülh üçün Ermənistanın da real və konkret mövqeyə gəlməsi vacibdir.

***NARDAR***

# "Rasmussen Global" Ermənistan hökumətinin "təbliğat şöbəsi" rolunda...

**Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi erməniпərəst dairələrə rahatlıq vermir. Bu səbəbdən də, ölkəmizə qarşı beynəlxalq müstəvidə qərəzli kampaniyalar səngimək bilmir. Erməni sevdalılarından biri də Danimarkanın keçmiş baş naziri, NATO-nun da keçmiş baş katibi olmuş Anders Foq Rasmussendir. Belə ki, "Ermənistanın Dostları Şəbəkəsi" adlı qrupa başçılıq edən Rasmussen vaxtaşırı olaraq ölkəmizə qarşı əsassız iddialarla çıxış edir. "Ermənistanın Dostları Şəbəkəsi" adlı qrupun 2024-cü il 21 mart tarixli "Avropa İttifaqı-Ermənistan münasibətlərinin dərinləşməsi: Ermənistanda daha çox Avropa; Avropada daha çox Ermənistan" adlı hesabatı da bunun növbəti təzahürüdür.**

## Kimdir Rasmussen?

Xatırladaq ki, bu şəbəkənin hazırladığı "hesabatlar" əvvəllər də olub. Qrupun adından da göründüyü kimi, buraya toplaşanlar erməni sevgisi olanlardır və onlar obyektiv, real situasiyanı özündə əks etdirən, İrəvanın maraqlarına zidd olan hesabat hazırlaya bilməzdilər. Erməni maliyyəsi ilə fəaliyyət göstərən bu qrupun işi Azərbaycanı hədəfə almaqdan ibarətdir.

Anders Foq Rasmussen kimdir? 71 yaşlı danimarkalı 1987-1992-ci illərdə Poul Şlüterin kabinetində vergilər naziri, 1998-ci ildən isə Danimarka Liberal Partiyası-"Venstre"nin üzvü və 2001-2009-cu illərdə partiyanın sədri olub. O, 27 noyabr 2001-ci ildən 5 aprel 2009-cu ilədək Danimarkanın Baş naziri vəzifəsini tutub. Rasmussen bu ölkənin sayca 48-ci hökumət rəhbəri postunu daşıyıb. O, 2009-2014-cü illərdə NATO-nun sayca 12-ci baş katibi olub.

## "Siz hərbçilərinizlə fəxr edə bilərsiniz"-deyən Rasmussen...

Xatırlatmaq yerinə düşər ki, Rasmussen NATO baş katibi olduğu müddətdə Azərbaycanın ünvanına təriflər yağdırıb, dövlətimizə minnətdarlığını dəfələrlə bildirib. Bunun üçün onun NATO-nun Baş katibi kimi 2012-ci ilin 7 sentyabrında Azərbaycana səfərini xatırlatmaq kifayətdir. Rasmussen səfər zamanı ölkəmizi NATO-nun mühüm tərəfdaşı adlandırmışdı. Münasibətlərin sabit və müsbət olaraq inkişaf etdiyini bildirən Alyansın o vaxtkı baş katibi Azərbaycan hərbçilərinin Əfqanıstandakı xidmətini yüksək qiymətləndirmişdi: "Biz sizin hərbçilərinizin Əfqanıstana verdiyi qəti dəstəyi yüksək dəyərləndiririk. Onlar nümunəvi xidmət göstərirlər. Siz onlarla fəxr edə bilərsiniz". "Biz hava məkanından istifadə və tranzit marşrutları vasitəsilə NATO-ya verdiyiniz siyasi dəstəyi də yüksək qiymətləndiririk" deyən Rasmussen Azərbaycanın bu prosesdə iştirakını Əfqanıstanda və regiondakı sabitlik üçün həyati əhəmiyyət daşıdığını vurğulamışdı. Rasmussen indi də bilməlidir ki, dövlətimiz və xalqımız hərbçilərimizlə fəxr edir. Çünki bu hərbçilər ərazi bütövlüyümüzü və suverenliyimizə də təmin edib.

Bəli, Rasmussen NATO Baş katibi olanda Ermənistana deyil, məhz Azərbaycana minnətdarlığını bildirirdi. Bəs indi nə oldu ki, onun mövqeyi 180 dərəcədə dəyişdi? Cavab birmənalıdır: Ermənistanın, erməni diasporunun ona verdiyi pul müqabilində Rasmussen və onun QHT-si ermənilər üçün lobbiçilik edir, Azərbaycana böhtanlar atır.

Rəsmi Bakı bir müddət əvvəl Rasmussenin təşkilatının hesabatında yer alan Azərbaycan əleyhinə əsassız iddiaları qətiyyətlə pisləyib və rədd edib. Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi açıqlayıb ki, hesabatda bütün faktların təhrif olunduğu, böhtan xarakterli və tamamilə əsassız müddəalar Azərbaycan əleyhinə aparılan qarayaxma kampaniyasının tərkib hissəsidir. Bu müddəalar, Ermənistanla Avropa İttifaqı arasında münasibətlərin dərinləşdirilməsinə yönəldiyi iddia olunan sözügedən hesabatla bağlı ciddi suallar doğurur. Əslində, bu, absurd təbliğatdan başqa bir şey deyil. Bundan əlavə, hesabatın erməniпərəst hekayələrin təbliğatı məqsədilə Ermənistan hökuməti ilə gəlirli sövdələşməyə uyğun olaraq hərəkət edən sözügedən erməni lobbi qrupu tərəfindən aprelin 5-də keçiriləcək ABŞ-Avropa İttifaqı-Ermənistan üçtərəfli konfransı ərəfəsində ictimaiyyətə açıqlanması sözügedən hesabatın və onu imzalayan sabiq rəsmilərin əsl niyyətlərini üzə çıxarır. Açıq mənbələrdən əldə edilən maliyyə sənədləri sübut edir ki, Anders Rasmussen öz lobbi şirkəti "RasmussenGlobal"ı tanıtmaq və şübhəli lobbiçilik və təsir xidmətləri göstərmək üçün NATO-nun keçmiş baş katibi statusundan sui-istifadəyə davam edir. Ermənistan hökuməti onun müştərisi kimi bu hesabata görə yüz minlərlə ABŞ dolları xərcləyib.




## BMTM-nin cavab-hesabatı

Yeri gəlmişkən, bugünlərdə Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM) Anders Foq Rasmussenin rəhbərlik etdiyi "Ermənistanın dostları şəbəkəsi" qrupu tərəfindən hazırlanmış "Aİ-Ermənistan münasibətlərin dərinləşdirilməsi: Ermənistanda daha çox Avropa; Avropada daha çox Ermənistan" adlı hesabatda Azərbaycan barədə yer alan əsassız iddialara cavab-hesabat hazırlayıb. BMTM-dən verilən məlumata görə, cavab-hesabatda bildirilir ki, Avropa İttifaqı (Aİ) ilə münasibətlərini inkişaf etdirməsi üçün Ermənistana tövsiyələr verilməsi müsbət haldır və bu, Azərbaycanın maraqları ilə ziddiyyət təşkil etmir. Belə ki, Aİ Azərbaycanın əsas ticarət tərəfdaşıdır və xarici ticarətinin 65 faizi Avropa İttifaqının payına düşür.

Narahatlıq doğuran məqam ondan ibarətdir ki, Ermənistan-Azərbaycan münasibətlərinin intensivləşdirilməsini hədəfləyən siyasətçilər və ekspertlər bu təşəbbüsləri Azərbaycana mənfi obraz yükləyərək mövcud faktları təhrifetmə yolu ilə aparırlar. Bu cür taktiki addımlar qeyri-məhsuldardır. Həm Ermənistanın, həm də bütövlükdə regionun və Avropa İttifaqının özünün maraqları üçün zərərlidir. "Rasmussen Global" tərəfindən dərc olunan son hesabat bunun aşkar nümunəsidir. Sözügedən hesabat erməni cəmiyyətində yanlış gözləntilərə səbəb olan qərəzli və təhrif olunmuş informasiyaları təqdim edir. Belə ki, "Rasmussen Global" hesabatında müxtəlif formalarda bir neçə yerdə qeyd olunmuş "Azərbaycan hərbi təhdid yaratmağa davam edir və Ermənistana hücum edəcəyinə dair işarə edir" ifadəsi Ermənistana artan Qərb hərbi yardımı və Avropa İttifaqının oradakı mövcudluğuna bəraət qazandırmaq məqsədi daşıyır.

Azərbaycan ən yüksək səviyyədə Ermənistana qarşı hərbi əməliyyatla bağlı hər hansı plan və niyyətin olmadığını birmənalı qaydada həmişə səsləndirib. Azərbaycan Prezidenti 2023-cü ilin dekabrında qəti şəkildə "Bizim Ermənistanın ərazisini işğal etməklə bağlı planlarımız yoxdur və onlar dövri olaraq bizi burada ittiham edirlər... Biz bunu istəmirik" fikrini səsləndirib. Buna baxmayaraq, Ermənistan və Qərbdəki bəzi siyasi qruplar Azərbaycanı Ermənistana qarşı ərazi iddialarının olmasında ittiham etməyə davam edirlər. Bu mənada "Rasmussen Global" Ermənistan hökumətinin təbliğat şöbəsi kimi fəaliyyət göstərir.

## Rasmussen və onun təşkilatı Cənubi Qafqazda gərginliyin olmasına maraqlıdır

Həmçinin "Rasmussen Global" tərəfindən irəli sürülən iddiaların əksinə, Ermənistanın Rusiya ilə ticarəti Rusiya-Ukrayna münaqişəsinin başlanmasından indiyədək əslində, inkişaf edib. Bu artımı, ilk növbədə, Qərbin sanksiyalarından yayınması və sanksiyaya məruz qalan malların təkrar ixracı ilə əlaqələndirmək olar. Bununla yanaşı, "Rasmussen Global" Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) və Rusiyanın "Azərbaycanın təcavüzü"ndən müdafiə olunması üçün Ermənistana az dəstək göstərdiyini bildirir. Nəzərə alınmalıdır ki, 1990-cı illərin əvvəllərində məhz Rusiya ilə müttəfiqliyi sayəsində 2 milyonluq əhalisi olan Ermənistan 7 milyonluq əhalisi olan qonşu Azərbaycanın torpaqlarını işğal etmişdi. Ermənistan Azərbaycan ərazilərinin işğalında Rusiyadan dəstək alması müqabilində öz suverenliyini Rusiyaya təhvil vermişdi. Bu səbəbdən, "Rasmussen Global" tərəfindən təhlükəsizlik təminatçısı kimi rolunun mübahisəli olduğu iddia edilən Rusiya əslində Ermənistanın regional ekspansionizm siyasətinə yardım edən müttəfiq olub.

BMTM-in cavab-hesabatında bildirilir ki, "Rassmussen Global" tərəfindən irəli sürülən fikirlər Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolunun artdığı dövrə təsadüf edir və Ermənistan-Azərbaycan arasındakı sülh prosesinə töhfə verməyəcəyi dəqiqdir.

"Dar maliyyə maraqlarını obyektivlik və ədalətdən üstün tutan Rasmussen və onun konsaltinq şirkəti təkcə Qərb müttəfiqlərinin maraqlarını təhlükə altına almır, həm də Cənubi Qafqaz regionundakı gərginlikləri əbədiləşdirməyə xidmət edir. Siyasətçilər, beynəlxalq təşkilatlar, vətəndaş cəmiyyəti nümayəndələri bu cür qərəzli lobbiçilik cəhdlərinə qarşı ayıq-sayıq olmalı, Cənubi Qafqaza münasibətdə daha balanslı və inklüziv yanaşmanı təşviq etməlidirlər. Həqiqi sülh və stabillik ancaq dialoq, qarşılıqlı hörmət və bütün tərəflərin qanuni narahatlıq və maraqlarının nəzərə alındığı şəraitdə əldə edilə bilər", - deyə cavab-hesabatda vurğulanır.

*Nardar BAYRAMLI*

# BMT-nin 22-ci İqlim Dəyişikliyi Konfransı

## COP22 harada keçirilib?




Birləşmiş Millətlər Təşkilatının 22-ci İqlim Dəyişikliyi Konfransı ekoloji problemləri müzakirə etmək üçün siyasi liderlərin və fəalların bir araya toplandığı beynəlxalq forumdur. Konfrans 2016-cı il 7-18 noyabr tarixlərində Mərakeşdə keçirilib. Konfransda Tərəflərin iyirmi ikinci Konfransı (COP22), Kioto Protokolunun Tərəflərinin on ikinci görüşü (CMP12) və Paris Sazişi Tərəflərinin birinci görüşü (CMA1) keçirilib. Konfransın məqsədi iqlim dəyişikliyi ilə mübarizə planlarını müzakirə etmək və dünyaya Paris Sazişinin həyata keçirildiyini göstərmək idi. İştirakçılar konfrans müddətində iqlim dəyişikliyinə qarşı qlobal həll yollarını tapmaq üçün birlikdə çalışdılar.

Mərakeşin Xarici İşlər və Əməkdaşlıq Naziri Səlahəddin Mezuarın sədrliyi ilə keçirilən konfransda təqribən 20.000 nəfərin iştirakı gözlənilirdi. 2 may 2016-cı il tarixində GL Events ilə tədbirin həyata keçirilməsini öhdəsinə götürməsi üçün xidmət müqaviləsi imzaladı. Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı da COP22-yə hazırlıqları dəstəkləmişdi.

Konfransda çıxış edənlər bildirdi ki, Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının məqsədi iqlim sisteminə təhlükəli müdaxilənin qarşısını almaqdır. O, həm BMT-nin Bioloji Müxtəliflik Konvensiyası, həm də Səhralaşma ilə Mübarizə Konvensiyası ilə sıx bağlıdır. Hər üçü 1992-ci ildə Rio Yer Sammitində qəbul edilmiş "Rio Konvensiyaları" hesab olunur.

Qeyd edək ki, UNFCCC-nin bu müqavilənin xülasəsi kimi qeyd etdiyi yeddi addım var:

1.İqlim dəyişikliyi problemi insan təhlükəsizliyinə təhdid kimi qəbul edilir.

2.Xüsusilə sənayeləşmiş ölkələrdə istixana qazı emissiyaları azaldılmalıdır və ölkələrə emissiyaları azaltmaq üçün təzyiqlər edilməlidir.

3.İnkişaf etmiş ölkələr tullantıları azaltmaq üçün tədbirlər görməli və inkişaf etməkdə olan ölkələrə rəhbərlik etməlidir.

4.İnkişaf etmiş ölkələr maliyyə və texnoloji dəstək verməklə inkişaf etməkdə olan ölkələrə yardım edəcəklər.

5.Həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələr iqlim dəyişikliyi siyasətləri və istixana qazları emissiyaları haqqında hesabatlar təqdim edirlər.

6.İnkişaf etməkdə olan ölkələrdə, ölkə sənayeləşdikcə istixana qazları emissiyalarının artımını məhdudlaşdırmaq üçün təmiz artım vurğulanır.

7.Konvensiya iqlim dəyişikliyinin mövcud olduğu şəraitdə həyat keyfiyyətini yaxşılaşdırmaq üçün zəruri hallarda iqlim dəyişikliyinin mənfi təsirlərini nəzərdən keçirəcək və onlara uyğunlaşacaq.

Hər bir COP tədbirinin məqsədi iqlim dəyişikliyi ilə necə məşğul olmaq və istixana qazı emissiyalarını azaltmaq barədə birgə qərar verməkdir. Ancaq hər il fərqli bir mövzu seçilir və diqqət mərkəzində olur. İyirmi ikinci sessiyanın əsas mövzuları suyun idarə edilməsi və enerji ehtiyatlarının karbondan azad edilməsi haqqında idi. Paris Sazişinin tətbiqi yolları COP22-nin gündəmində idi. Tədbirə britaniyalı jurnalist kimi tanınan Nik Qovinq sədrlik edib.

*Günel ABBAS*

# Partiya daxilində sevinməyə qadağa

Redikül düşərgə daxilindəki acınacaqlı vəziyyət günü-gündən daha da tündləşir. Heç bir sosial dayağı olmayan partiyalardakı diktatura idarəçiliyi bütün üzvləri cana gətirib. Xüsusilə, AXCP daxilində hökm sürən dözülməz mühit, despot rejimini xatırladan idarəetmə bütün partiya üzvlərini narahat etməkdədir. Vaxtilə bu partiyada təmsil olunan şəxslərin ard-arda istefa verərək bu qurumdan ayrılmasının ən böyük səbəblərindən biri də məhz sədr Əli Kərimlinin yaratdığı dözülməz mühitdir.

Qeyd olunduğu kimi, Əli Kərimlinin partiyada yaratdığı diktaturaya əsaslanan idarəetmə üsulu partiya üzvləri tərəfindən açıq şəkildə ifşa edilir. Məhz bu kimi məsələlərə görə, Əli Kərimlinin ətrafında olan şəxslər ard-arda istefa verərək ondan "canlarını" qurtarmağa çalışırlar. Ə.Kərimlinin partiya daxilində yaratdığı avtoritarizmin isə səbəbi bəllidir - o, xarici antimilli mərkəzlərdən aldığı ianələrə tək sahib olmaq istəyir. Eyni zamanda, partiya üzvlərindən dövlətə qarşı yalan, şər-böhtan kampaniyası aparmaq tələb edilir. Buna riayət etməyənlər isə təzyiqlə üzləşir və nəhayətdə partiyadan uzaqlaşdırılırlar. Faktlar orttadadır.

Məsələn, ötən ilin sonunda bəzi üzvlər partiyadakı ab-havaya, saxtakarlığa, Əli Kərimlinin partiya daxilindəki repressiv siyasətinə etiraz olaraq istefa verdiklərini bəyan etmişdilər. Bəlli olmuşdu ki, Əli Kərimli və ətğrafındakı məhdud çevrə öz xəyanətlərinə gəncləri də alət etmək istəyiblər və buna etiraz olaraq həmin gənclər AXCP-dən çıxdıqlarını bəyan ediblər. Maraqlıdır ki, parityadan istefav verən bütün isnanlar eyni problemləri önə çəkir - bu dəfəki problem isə Azərbaycan dövlətinin ötən ilin sentyabrında keçirdiyi lokal antiterror tədbirlərinin bəyənilməsi olmuşdu. Suverenliyimizin bərpa olunmasına seçinən insanlar sosial şəbəkələrdə AXCP-nin Əli Kərimliyə "ən yaxın" çevrəsi tərəfindən açıq təhqirlərə məruz qalmışdı, nəticədə isə istefa verməyə zorlanmışdılar.

Bəli, AXCP-də fəaliyyət göstərən azsaylı üzvlərin əksəriyyəti partiya sədrinin əməllərindən cana doyduqlarını bildirirlər. İndiyədək bu partiyanın gənclər təşkilatına yığılmış beş-on gənc Ə.Kərimlinin, eləcə də, ona yaxın olan qrupun əmrlərini sözsüz yerinə yetiriblər. Ə.Kərimli xarici erməniпərəst təşkilatlardan alınan sifarişlərin əsas "qara işləri"ni məhz həmin gənclərə gördürüb. Hətta Ə.Kərimlinin gənclər üzərindən çirkin oyunlar oynadığının, öz mənafeyi xatirinə rəhbərlik etdiyi partiyanın üzvü olan gəncləri belə qanunsuz əməllərə yönləndirdiyi kimi faktlar mövcuddur. Gənclər isə artıq Ə.Kərimli kimilərinin əmrlərini gözüyumulu yerinə yetirmək istəmirlər. Onlar verilən "göstəriş"i təftiş edir, hətta müzakirəyə çıxarırlar. Bu isə AXCP sədrinə naxoş gəlir, nəticədə həmin gənclər hədəfə alınırlar. Yəni bu partiyada kiminsə özünün azad sözü, fikri ola bilməz. Bu isə gənclərdə ikrah hissi oyadır və onlar aldadıldıqlarının fərqinə varırlar. Demokratiya pərdəsinə bürünərək sədri olduğu partiya daxilində diktatura quran Əli Kərimli "AXCP biznesini" əlində saxlamaq üçün aldatdığı bu kimi gənclərdən istifadə edir. Maraqlıdır ki, adıçəkilən gənclərin istefa verməlləri barədə postlarının altında küçə söyüşləri belə yer almaqdadır - bu şəxslər guya "Ə.Kərimlini müdafiə etdiklərini" düşünürlər. Amma başa düşmürlər ki, bununla Ə.Kərimlinin əsl iç üzünü cəmiyyətə göstərirlər. Adını partiya qoymuş bu qruplaşmanın əsl fəaliyyətinin xəyanətdən və satqınlıqdan ibarət olması, hədəfinin isə Azərbaycana qarşı düşmənçlik və erməni sevgisi təşkil etməsi artıq sirr deyil.

*MƏNSUR*

# Sülhə pəl vuran Fransa

## Bu ölkənin tənzimləmə prosesinə maneələr yaratmaq cəhdləri beynəlxalq səviyyədə tənqid olunur

**Postmüharibə mərhələsində Azərbaycanla Ermənistan arasında başlayan sülhyaratma prosesinə beynəlxalq səviyyədə fərqli yanaşmalar müşahidə edilir. Təəssüf doğuran haldır ki, ayrı-ayrı ölkələrin və bəzi beynəlxalq təşkilatların mövqeləri etimad quruculuğunda müsbət rol almaqdan çox-çox uzaqdır. Bu qəbildən olan ölkələr və beynəlxalq təşkilatlar hansısa yollarla, manipulyativ davranışlarla sülh prosesini pozmağa çalışırlar. Özünü Avropanın aparıcı dövlətlərindən sayan, hətta liderlik ambisiyaları ortaya qoyan Fransa məhz belə pozucu qüvvələr sırasında yer alır. İş o yerə çatıb ki, bu ölkənin sərhədlərindən uzaqda yerləşən Cənubi Qafqaza da əl uzatması və burada himayəsində olan Ermənistan üzərindən destruktiv fəaliyyətlər həyata keçirməsi beynəlxalq səviyyədə də tənqid edilir. Bu xüsusda, növbəti açıqlama İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini Edmondo Çiriellidən gəlib.**

## Fransa sülh prosesində vasitəçi kimi yer almaq haqqını itirib

Fransada 700 mindən çox erməni yaşayır. Bu amil də ölkənin siyasətində öz izlərini buraxır. Belə ki, Fransanın siyasətçiləri bir qayda olaraq karyera yüksəlişində erməni icmasının səsini qazanmağa böyük səy göstərirlər. "Əl əli yuyar, əl də qayıdıb üzü", deyiblər. Fransa siyasətçiləri ənənəvi olaraq erməni lobbisindən gələn sifarişləri dövlət siyasəti səviyyəsinə yüksəldirlər və bunun müqabilində də həm yaxşı maliyyə, həm də seçkilərdə səs qazanırlar. Prezident Emmanuel Makronun və onun formalaşdırdığı komandanın üzvlərinin fəaliyyəti də bu baxımdan istisna deyil. Fransanın hazırkı hakimiyyətinin Cənubi Qafqaz ölkələrinə, konkret desək Azərbaycana və Ermənistana münasibəti tipik ikili standartlar nümunəsidir. Böyük Fransanın prezidenti E.Makron kiçik Ermənistan naminə ermənidən artıq ermənilik etməyi özünə şərəf sanır ki, bu da onun ölkəsi üçün rəzalətdən başqa bir şey deyil.

Fransanın Ermənistana açıq-aşkar havadarlıq etməsi 30 il həllini tapmayan keçmiş Dağlıq Qarabağ münaqişəsinin və 44 günlük müharibədən, 23 saatlıq antiterror tədbirlərindən sonra yaranan reallıqların fonunda daha qabarıq şəkildə nəzərə çarpır.

Məlumdur ki, bu ölkə onilliklər ərzində Ermənistanın işğalçılıq siyasətinə görə yaranan keçmiş Dağlıq Qarabağ münaqişəsi ilə bağlı artıq ömrünü bağışlayan ATƏT-in Minsk qrupunun üç həmsədr dövlətindən biri statusuna malik olub. Ancaq onun davaranışları uğurlu və obyektiv vasitəçi mövqeyindən çox uzaq idi. Danışıqlar prosesində Fransa daim anlaşılmaz, absurd yanaşmalar ortaya qoymaqla proseləri dalana istiqamətləndirib.

Fransanın pozuculuq fəaliyyəti postmüharibə mərhələsində daha qabarıq şəkildə nəzərə çarpır. Aydın şəkildə müşahidə edilir ki, E.Makron və onun siyasi sifarişi ilə hökumətin təmsilçiləri, parlament Azərbaycanla bütün körpüləri yandırmaq yolu tutub. Hələ müharimə günlərində E.Makron tez-tez Azərbaycan Prezidentinə telefon açaraq döyüşlərin dayandırılmasını istəyirdi. O unudurdu ki, Azərbaycan güclü dövlətdir və heç kimin diktəsi ilə oturub durmur. Postmüharibə dövründə isə Fransa hakimiyyəti Azərbaycanın qələbələrini - ərazi bütövlüyünü və suverenliyini təmin etməsini sinirə bilmir. Fransanın düz 5 dəfə BMT TŞ-də Azərbaycana qarşı qətnamələr qəbul edilməsi ilə bağlı məsələni gündəmə gətirməsi, son olaraq bu ölkənin Senatının 2024-cü il yanvarın 17-də növbəti dəfə respublikamızın əleyhinə qətnamə qəbul etməsi E.Makron iqtidarının qərəzçilinin açıq təzahürüdür.

Fransa postmüharibə mərhələsində də utanıb çəkinmədən Azərbaycanla Ermənistan arasında sülhyaratma prosesində vasitəçilik etmək istəyini ortaya qoyur. Ancaq birtərəfli qaydada Ermənistanın tərərfini saxlayan, burada revanşizmi alovlandıran, Azərbaycana münasibətdə qərəzçilik nümayiş etdirən bir ölkə hansı haqla vasitəçi ola bilər? Yeri gəlmişkən, məhz Fransanın manipulyasiyaları və qərəzçiliyi ucbatından Brüssel formatı iflasa uğrayıb. Son vaxtlarda isə Fransa məğlub Ermənistanın kapitulyasiyaya uğrayan ordusunu gücləndirməyə çalışır, bu ölkəyə hərbi texnika göndərir.



## Nazir Stefan Sejurnenin əsassız iddiaları



Fransanın Cənubi Qafqazda sülhyaratma prosesinə yanaşmada xoş məramdan uzaq olan mövqedə dayandığı bu ölkənin Avropa və xarici işlər naziri Stefan Sejurnenin bu günlərdə səsləndirdiyi fikirlərdə bir daha təsdiqini tapıb. Onun aprelin 2-də Parisdə ABŞ dövlət katibi ilə birgə mətbuat konfransı zamanı Azərbaycana qarşı səsləndirdiyi əsassız iddialar növbəti dəfə Fransanın bölgədə açıq-aşkar gərginlik yaratmaq və sülh prosesinə mane olmaq səylərinin bariz nümunəsidir. Nazirin dilindən 30 il ərzində işğalçılıq siyasəti aparmaqla regionu təhdid altında saxlayan Ermənistanı sülhpərvər dövlət kimi təqdim etməsi bu ölkənin siyasətinin tamamilə saxta olmasından və çirkin, məqsədlərə xidmət etməsindən xəbər verir.

İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini Edmondo Çirielli Fransanın xarici işlər naziri Stefan Sejurnenin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması ilə bağlı bəyanatlarını tənqid edib və bildirib ki, Fransa Cənubi Qafqazda sülhün bərqərar olması səylərini pozmamalıdır. Bu barədə İtaliyanın "Giornale Diplomatico" nəşri məlumat yayıb.

Fransalı nazirin ABŞ-ın dövlət katibi Entoni Blinkenlə keçirdiyi mətbuat konfransında səsləndirdiyi sözləri şərh edən E.Çirielli qeyd edib ki, Azərbaycan-Ermənistan sülh prosesində iştirak edən qurumlardan başqa qurumların nümayəndələrinin hər hansı uzaqgörən bəyanatı gərginliyi daha da artıra bilər. "BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (COP29) Tərəflər Konfransının 29-cu sessiyasına ev sahibliyi edən Azərbaycan məsuliyyətli mövqe tutur. Fransa Respublikasının xarici işlər naziri ABŞ dövlət katibi ilə birgə mətbuat konfransında verdiyi açıqlamalar, şübhəsiz ki, vəziyyəti sakitləşdirməyə kömək etmir. Fransanın naziri Sejurnenin sağlam düşüncəni rəhbər tutaraq regionda davamlı sülhə nail olmaq üçün irəliləyənlərin səylərini sarsıtmaması məqsədəuyğun və faydalı olardı", - deyə Edmondo Çirielli vurğulayıb.

*Mübariz FEYİZLİ*

# Vaşinqton çətin sınaq qarşısında...

## Ştatlar müstəqillik axtarır, xarici siyasət kursu isə fiaskonun eşiyində...

## ABŞ yeni “aura” əldə etmək üçün yeni planlar qurur

XX əsrin son onilliyində SSRİ-nin dağılması ilə özünü dünyada tək güc sayan ABŞ çətin “imtahan” qarşısındadır. Son 30 ildə “nəzarətə” götürdüyü, demokratiya pərdəsi altında faktiki işğalçılıq planı həyata keçirdiyi ərazilərlə bağlı çətinliklərlə üzləşən Vaşinqton daxili arenada da mühüm kataklizmlər yaşayır. Məsələn, bir zamanların ABŞ üçün ən populyar mövzusu olan “Böyük Orta Doğu” planı günümüzdə Vaşinqtonun “qarnaltı yükü”nə çevrilib. “Monolit ştatlar” mifi isə dağılmadaqda davam edir...

### Daxili parçalanma ehtimalı güclənir...

İlk olaraq daxili vəziyyətə nəzər salaq: son üç ayda müşahidə olunanlar ABŞ-ın dövlətçilik “təməlləri”nin laxladığını deməyə əsas verir. Bu ilin əvvəlində Birləşmiş Ştatlarda Kosntitusiya Məhkəməsinin qərarı heçə sayıldı - Texas qubernatoru Qreq Abbottun Meksika ilə sərhəddə inşa edilən tikanlı məftilli divarı sökmək qərarını icra etmədi. Beləliklə, ştat mərkəzi hakimiyyətə - Vaşinqtona tabesizlik nümayiş etdirdi. Hətta könüllülərdən ibarət qruplar yaradaraq, Meksika sərhədinin qorunması işinə başlanıldı. Bu, hər an fürsət gözləyən “Texit tərəfdarları”nı yenidən hərəkətə gətirdi və Texasın onsuz da illərdir ki, təxriə saldığı müstəqillik planlarını yenidən canlandırdı. Ən maraqlı hal isə Texasın bu addımının 25 ştat tərəfindən dəstəklənməsi oldu - “domino effekti” yaradan üsyan xüsusilə Kaliforniya və Floridada daha çox nəzərə çarpdı. ABŞ-ın intellektual resurslarının, İT korporasiyalarının, bir sözlə Amerika cəmiyyətinin qaymaqlarının cəmləşdiyi Kaliforniyanın Vaşintona qarşı çıxması ehtimalı yarandı.

Texası anlamaq olar: 1845-ci ilin 29 dekabrında rəsmən Birləşmiş Ştatlara birləşən Texas ABŞ-ın tərkibinə birbaşa İttifaqın bərabər hüquqlu üzvü kimi qəbul edilmiş ilk və indiyə qədər yeganə beynəlxalq səviyyədə tanınmış müstəqil dövlətdir. Bundan başqa, Texas müstəqil ştat olaraq ABŞ-a daxil olduğundan, bu ştat müstəqillik məsələsi ilə bağlı ümumxalq referendumu keçirmək hüququna malikdir. Həmçinin, Texas bayrağı-federal ilə eyni səviyyədə bayraq dirəyində olmaq hüququna malik olan yeganə ştat sayılır.

ABŞ ştatlarının mərkəzi hakimiyyətdən ayrılmasını şərtləndirən situasiya necə yaranıb? Xüsusilə son illərdə, ABŞ-ın xarici siyasət kursu bölgələrdə açıq etirazlarla qarşılanır. Büdcəqnin sosial istiqamətinə yönəlndirilməsi mümkün olan milyardların Orta Şərq, Asiya, Afrika və ya hazırda Ukraynaya transfer edilməsi ABŞ vətəndaşlarını razı salmır. Bunun nəticəsidir ki, Konqres son zamanlarda xarici yardımların azaldılması məsələsini gündəmə gətirir. Təbii ki, bu da ABŞ-ın adıçəkilən bölgələrdəki nüfuzuna böyük təsir göstərir. Başqa sözlə, daxili çəkişmələrin miqyasını azaltmaq, parçalanmanın qarşısını almaq üçün mərkəzi hakimiyyət geri çəkilməyə məhkumdur. Bu isə rəsmi Vaşinqtonun siyasi-iqtisadi aurasına təsir göstərir. Beləliklə, ABŞ indiki mərhələdə daha az “xərc tələb edən”, əksinə gəlir gətirmək imkanına malik regionlara meyl göstərir.

### Yaxın Orta Şərq “bataqlığı” ABŞ-a göyə sovrulan milyardlara başa gəlir

Başqa bir misal: Qərb mənbələri etiraf edirlər ki, ötən il HƏMAS-ın İsrailə hücumundan sonra Yaxın Şərqdəki Amerika hərbi kontingentinin sayının artırılması Vaşinqtonu 2 milyarda yaxın artıq “xərcə” salıb. Ötən ilin sonlarında Konqres müvafiq vəsait ayırmaq üçün imkanlar axtarırdı və nəticədə qərar qəbul edildi - Pentaqondan qanunvericilərə göndərilmiş sənədə əsasən, 1,6



milyard dollardan artıq vəsait bölgəyə daha çox gəmi, döyüş təyyarəsi və avadanlıq göndərilməsi və onların dörd ay orada saxlanılması xərcləri üçün ayrıldı. Xüsusi qeyd - bu məbləğə ABŞ ordusunun Yəməndəki husilərin mövqelərinə hücum etmək və Qırmızı dənizdəki dronlarını və raketlərini məhv etmək üçün istifadə etdiyi raketlərin dəyəri daxil deyil. 2024-cü illə bağlı hərbi inkişafa yönəlik xərclər proqnozu 2,5 milyarda qədər arta da bilər.

Buna, Ukrayna üçün 100 milyarda yaxın vəsaitin də “gözdən çıxarılması”nı əlavə etsək, yaxın zamanlarda ABŞ-ın iqtisadi potensialının sürətlə uçurumdan üzüaşağı yuvarlanmasının şahidi olacağımızı deməyə əsas yaranır. Ən azından, Qərb mənbələri, xüsusilə KİV bu haqda tez-tez yazır. Suriya, İraq, hətta Liviya və Livanı özünün “poliqonuna” çevirən ABŞ bu bölgələrdə özünün siyasi-ictimai aurasını itirib. Ortadakı qazanc isə elə də diqqətçəkən deyil. Ən azından, artıq həmin region açıq şəikldə ABŞ-ın oranı tərk etməsi tələbini səsləndirir, bəzi hallarda uğura da nail ola bilirlər. Deməli ki, ABŞ-ın dayaqları bu regionda artıq laxlamağa başlayıb. Çıxış yolu isə, işğalçı imici fərqli imiclə əvəz etməkdir. Yeni “imic” formalaşdırmaq üçün isə...

### Yeni dövr üçün yeni hədəflər...

Birləşmiş Ştatların yeni dövr üçün hədəfinin Mərkəzi Asiya - Cənubi Qafqaz xətti üzrə seçilməsi təsadüfi deyil. Düzdür, bu regionda Yaxın Şərqdə olduğu kimi işğalçı planını açıq şəkildə həyata keçirmək imkanı olmayan Vaşinqton ən azından iqtisadi dividend axtarışındadır. Şərq-Qərb tranzaksiyası üzərində nəzarətçi olmaq üçün dəridən-qabıqdan çıxan ABŞ öz planlarını həyata keçirmək üçün ən ucuz vasitədən istifadə edir - erməni kartı Birləşmiş Ştatlar üçün “rebilitasiya” imkanı kimi görünür. Burada bəzi əsaslar da mövcuddur. O baxımdan ki, erməni lobbisi məsələsi burada da özünü göstərir. ABŞ o günə qalıb ki, bu lobbinin “gücündən” “imicmeyker” statusunda “bəhrələnməyə” çalışır.

ABŞ-ın regiona müdaxilə imkanları üçün səfərbər edilən digər vasitə isə İŞİD və onun yaramaz təbliğatıdır.Şərq-Qərb tranzitinin keçdiyi müsləman ölkələrini İŞİD-lə “zənginləşdirmək” istəyən ABŞ unudur ki, bura Yaxın Orta Şərq deyil - başqa sözlə, Mərkəzi Asiya - Cənubi Qafqaz geocoğrafi məkanı fərqli siyasi-hərbi və dini xüsusiyyətləri daşıyır. Əslində, bunu ABş hakimiyyəti anlayır - 5 aprel görüşü məhz bu “anlayışın” göstəricisidir. Dini müdaxilə ilə hər hansı bir uğur qazana bilməyəcəyini görən Birləşmiş Ştatalar diqqəti yenə “erməni kartına” yönəldir...

***SADİQ***

# Blinkeni Parisə aparan səbəblər

Xəbər verildiyi kimi, ABŞ dövlət katibi Entoni Blinken aprelin 2-də Fransaya səfər edib. Blinken Parisdə prezident Emmanuel Makron, eləcə də xarici işlər və müdafiə nazirləri ilə görüşüb. Ukrayna danışıqların əsas mövzularından birinə çevrilib. Yüksək statuslu ABŞ diplomatının bu gözlənilməz səfər proqramı görüşlərin əsas mövzusunun Ukrayna olduğunu deməyə əsas verir.

Entoni Blinkenin Paris səfəri Rusiyada da diqqətlə izlənir.

ABŞ dövlət katibi səfər gününün birinci yarısında Fransanın müdafiə naziri ilə birgə “Sezar” haubitsaları istehsal edən “Nexter Systems” konserninin silah zavoduna baş çəkib. Məlumdur ki, Fransa da Ukraynanın silah təchizatçılarından biridir. Müharibə başlayandan bəri Paris Ukrayna silahlı qüvvələrinə 3,8 milyard avro yardım ayırıb. Ümumi götürsək, Fransanın maliyyə yardımları miqyasına görə çox da böyük məbləğləri əhatə etmir. Lakin Kiyevin silah-sursatla təchizatını nəzərə alsaq, Parisin də bu müharibəyə xərc çəkdiyini söyləmək mümkündür.

“Ukrayna xalqını özünümüdafiə üçün lazım olan hər şeylə, xüsusən də silah-sursat və hava hücumundan müdafiə sistemləri ilə təmin etmək vacibdir”. Bu sözləri Entoni Blinken Paris səfərində jurnalistlərə açıqlama verərkən söyləyib.

### ABŞ dövlət katibi: “Ukraynanın ərazisindən kənar həmlələrini dəstəkləmirik”

Fransanın xarici işlər naziri Stefan Sejournet ilə birgə mətbuat konfransında Blinken qeyd edib ki, Vaşinqton Kiyevin Ukrayna ərazisi kimi tanıdığı ərazilərdən kənardakı hədəflərə hücumlarını dəstəkləmir: “Bizim siyasətimiz ilk gündən Ukraynanı Rusiyanın təcavüzündən qorumaq üçün mümkün olan hər şeyi etmək idi, indi də belədir. Bununla yanaşı, biz Ukraynanın ərazilərindən kənara çıxan həmlələri dəstəkləmir və bəyənmirik”.

Blinkenin səfəri zamanı əsas müzakirə mövzularından biri də Rusiyaya İran, Çin və Şimali Koreyadan göndərilən yardımların qarşısının alınması olub. “Biz hər gün Rusiyaya hərbi maşınlar, müdafiə-sənaye kompleksləri, o cümlədən İran, Şimali Koreya və Çindən silah və texniki materialların ötürülməsinin qarşısını almaq üçün çalışırıq. Müzakirə etdiyimiz ən vacib məsələlərdən biri də budur. Bu, təkcə Ukraynaya yox, bütövlükdə Avropanın təhlükəsizliyinə təhdiddir”, - deyə Entoni Blinken vurğulayıb.

ABŞ dövlət katibi Ukraynanın Şimali Atlantika alyansına hipotetik üzvlüyü məsələsinə də toxunub. Blinkenin yanaşmasından bir daha aydın olur ki, ABŞ Ukraynanın NATO-ya götürülməsinin Rusiya ilə Qərb arasındakı münasibətləri kəskinləşdirəcək qırmızı xətt olması ilə bağlı Moskvanın dəfələrlə səsləndirdiyi bəyanatlara məhəl qoymur.

### ABŞ Avropanı yardıma məcbur edir

Ağ Ev Ukraynaya növbəti yardım paketini ayırmağa tərəddüd edir. Artıq bir neçə aydır ki, konqresmenlər Ukraynaya maliyyə ayrılması ilə bağlı müddəaları özündə əks etdirən qanun layihəsi üzərində razılığa gələ bilmirlər. Nümayəndələr Palatasının spikeri Mayk Conson qanun layihəsinin səsverməyə çıxarılmasına mane olur. Deyilənə görə, spiker bu məsələ ilə bağlı özünün hazırladığı qanun layihəsini konqresə təqdim etməyi planlaşdırır. İş orasındadır ki, hətta bu sənəd son nəticədə təsdiqlənsə belə, onun müzakirəsi və qəbulu uzun vaxt aparacaq.

Digər iddialara görə, ABŞ büdcəsində xarici yardımlar üçün ayrılan vəsaitlər artıq tükənib. Bundan başqa, ABŞ Ukraynaya silah tədarükünü də dayandırıb. Ötən həftə CBS telekanalına müsahibə verən Ukrayna prezidenti Volodimir Zelenski ilk dəfə olaraq ABŞ-ın yardım göstərməyəcəyi təqdirdə ölkəsinin Rusiya ilə müharibədə uduzma riskindən danışıb. Bütün bunlar onu deməyə əsas verir ki, Blinkenin Fransaya səfəri Ukraynanın maliyyələşdirilməsi məsələsi ilə sıx bağlıdır. Bəzi siyasilərin fikrincə, ABŞ Aİ-dəki müttəfiqlərinin Kiyevə yardımı kəsməməsi, əksinə, göndərilən maliyyə vəsaitlərinin həcmini artırmağı razılaşdırmaq üçün plan hazırlayıb. Hazırda Ukraynanın bütün mənalarda təcili yardıma ehtiyacı olsa da, görünür, Avropa ölkələri sonu görünməyən bu müharibədən yorulub. Heç bir ölkə daha öz büdcəsini xarici yardım üçün nəzərdə tutulandan artıq boşaltmaq istəmir, bu da anlaşılandır.



### Sözlər eyni, əməllər fərqli...

Hələ fevral ayında Çexiya prezidenti Petr Pavel Münhen Təhlükəsizlik Konfransında demişdi ki, Praqa Ukrayna üçün Avropa İttifaqı xaricində 500 min ədəd 155 mm-lik mərmi və 300 min ədəd 122 mm çaplı mərmi ala biləcəyi ölkələri müəyyən edib. Lakin nəzərə alınmalıdır ki, 2023-cü ilin martında Aİ-nin xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Cozef Borrel bir il ərzində Kiyevə 1 milyon civarında 155 millimetrlik döyüş sursatının təhvil veriləcəyini açıqlamışdı. 2024-cü ilin yanvarında isə diplomat bu vədin yalnız üçdə birinin yerinə yetirildiyini etiraf etdi. Buradan aydın olur ki, verilən vədlər hələ real dəstək demək deyil.

Blinkenin Fransaya səfəri həm də Vaşinqton və Paris arasında Ukraynaya dəstək mövzusunda gələcək fəaliyyət strategiyası ilə bağlı fikir ayrılıqlarının artması kontekstində maraqlıdır. Makronun Ukraynaya qoşun yeritməklə bağlı açıqlaması Avropanın siyasi elitasında özünə dəstək tapmasa da, Fransa lideri israrla bildirir ki, bu böhranla bağlı heç bir qırmızı xətt olmamalıdır. Bunun cavabında Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov hədələyici tonda bəyan edib: “Bu halda Moskvanın Fransa ilə bağlı heç bir qırmızı xətti olmayacaq!”

Avropa mediası Makronun məlum bəyanatını Qərbin Ukraynaya dəstəyində yaranan boşluğu doldurmaq cəhdi ilə əlaqələndirir. Fransa prezidentinin “papadan artıq katolik olmaq” istəyi isə ABŞ-da müəyyən narahatlıq doğurub. Bütün hallarda Bayden administrasiyası müharibənin genişlənməsindən ehtiyatlanır. Görünən odur ki, ABŞ Rusiya ilə hərbi toqquşmadan boyun qaçırır.

### Qəzzada atəşkəs və Ermənistan ovu

Entoni Blinkenin Paris səfərində müzakirəyə çıxarılan əsas mövzulardan biri də Qəzza zolağında İsrail və radikal HƏMAS qruplaşması arasında davam edən hərbi əməliyyatlar olub. Fransa bu məsələdə özünü daimi atəşkəsin tərəfdarı kimi göstərməyə çalışır. İsrailin yaxın müttəfiqi ABŞ isə yalnız Ramazan ayında atəşkəs elan edilməsini nəzərdə tutan BMT Təhlükəsizlik Şurasının qətnaməsinin qəbuluna razılıq verib.

ABŞ-ın dövlət katibi Entoni Blinken Fransadan sonra Belçikaya səfər edib və burada NATO xarici işlər nazirlərinin alyansın 75-ci ildönümünə həsr olunmuş iclasında, eləcə də ABŞ-Avropa İttifaqı Ticarət və Texnologiya Şurasının 6-cı iclasında iştirak edib. Avropa turnesinin sonunda Blinken Ermənistan, Aİ və ABŞ arasında keçiriləcək üçtərəfli görüşdə iştirak edəcək. İrəvanın Azərbaycanla sülh müqaviləsi imzalamaqdan boyun qaçırdığı bir vaxtda bu görüş həm Bakıda, həm də Moskvada haqlı narazılıq yaradıb. Ermənistan isə yaxın müttəfiqi olan Rusiyanı saymadan Qərblə şübhəli danışıqlara getməklə siyasi taleyini risk altına atmağa davam edir. Yaxın qonşularla münasibətləri normallaşdırmaq istəməyən, regionda sülh əvəzinə münaqişə yaratmağa çalışan İrəvan rejimi bu gedişlə Ermənistanı böyük güclərin ayaqaltısına çevirəcək.

***Murad Köhnəqala***

# Puç ömrün aqibəti

## Lev Nikolayeviç Tolstoyun “İvan İliçin ölümü” povesti haqqında

1869-cu ildə Lev Tolstoy yeni mülk almaq üçün Penza quberniyasına səfərə çıxdı. Axşamların birində yolunun üstündəki Arzamas adlı əyalət şəhərinin mehmanxanasına düşən yazıçı gecə qaldığı otaqda bərk sarsıntı, dərin nevroz keçirdi. Ölüm qiyafəsində ona görsənən İblis yazıçını dibigörünməz ümidsizlik girdabına vurub saldı. Bu zərbənin zəxmini Tolstoy ömrü boyu canında gəzdirdi.

Onda onun qırx bir yaşı vardı, yer üzündəki fiziki həyatının tam yarısını geridə qoymuşdu. Üstəlik, altı ildən bəri üstündə fasiləsiz işlədiyi “Hərb və sülh” epopeyasını yenicə başa vurmuşdu, knyaz Andrey Bolkonskinin haqq dərgahına, baqi aləmə möhtəşəm gedişini misilsiz bir ustalıqla qələmə almışdı. Ölümü fani dünyadan əbədiyyət dünyasına keçid prosesi kimi təsvir eləmişdi. Bəs onda haqq dərgahına, ruha, əbədiyyətə bunca inamla dolub-daşan bir vücuda ölüm qorxusu necə, haradan yol tapmışdı?..

Üstündən dörd il də ötəndən sonra Tolstoy “Anna Karenina” üzərində işə başlayacaqdı. Əlli yaşına çatmamış bu romanı da tamamlayıb yaradıcı həyatının ən ağır, ən sanballı, həm də işıqlı, nikbin mərhələsini geridə qoyacaqdı. Bundan sonra onun yer planetində yaşanası hələ otuz üç ili - bir peyğəmbər ömrü qədər möhləti qalırdı. Bu möhlət əvvəlki ideallarını şübhə altına alıb keçmişiylə amansız polemikaya girmək üçün ona gen-bol yetəcəkdi. Arzamasdan baş götürən qorxu seli illər sonra bulanıq sularında qəzəb, nifrət, kin daşları gətirəcəkdi, Tolstoy o daşlardan özünə qala qurub arvadıyla, uşaqlarıyla, cəmiyyətlə, pravoslav kilsəsiylə, dövlətlə, dövlətin zirvəsiylə cəngə başlayacaqdı.

***

“Hərb və sülh”ün, “Anna Karenina”nın müəllifi əlli yaşından sonra həqiqət sorağına çıxdı. Qəribədir, bu möhtəşəm əsərləri yaratmaqla öz ruhunun zirvəsinə yetişmiş, üstəlik, Adəmdən Xatəmə yer üzünə gəlib-getmiş cəmi idealistlər nəslinin ön sırasında ən hörmətli yerlərdən birinə yiyələnmiş Lev Nikolayeviç hansı həqiqəti axtarırdı?

Mən demirəm bundan yüksək, bundan uca, bundan yuxarı həqiqət yoxdur, hətta möhkəm inanıram ki, var, mütləq var! Fəqət onun bu mərhələdə ideal cəmiyyət, ideal ailə, ideal dostluq modellərindən, sərt desək, imtinasını, yumşaq desək, bu ideallara inamının azalmasını, məncə, irəliyə atılmış addım, yuxarıya doğru sıçrayış kimi yox, yana atılmış addım, ya da geriyə atılmış yarımaddım kimi dəyərləndirmək olar. Sevginin yuvasına ölüm xofu yol tapıbsa, hökmən insanın qanadlarını yolacaq, ayağından sallaşıb onu yerə - maddiyyat aləminə, reallıqlar dünyasına, qorxu, nifrət səltənətinə çidarlayacaq.

Tolstoyun həyat eşqi, saf, məsum duyğuları bu mərhələdə bir xeyli sozalmış kimi, inamı şübhəsinə, sevgisi qorxusuna, mərhəməti nifrətinə yenilmiş kimi görünür. Təkcə elə “Kreyser sonatası”nı gözdən keçirmək bu qənaətə gəlmək üçün yetərlidir: Pyer-Nataşa, Levin-Kiti cütlüklərinin çatdığı ocağı sevə-sevə qalayan bir müəllif necə oldu ki, qadınla kişinin birgəliyini qanuniləşdirən, müqəddəsləşdirən ailə institutuna bunca nifrət bəsləməyə, ikrah duymağa başladı? Yazıçı bu dönəmdə təbliğ elədiyi mənəvi dəyərləri, keşiyində durduğu əxlaqi imperativləri əsasən neqativ tərəfdən, astar üzündən nəzərdən keçirir, yəni, məsələn, daha çox “insan sevəndə, inananda belə olur” mənzərəsini yox, “insan sevməyəndə, inanmayanda belə olur” mənzərəsini göz önündə canlandırır. Bu tendensiya onun yazı tərzində, ədəbi-bədii dəst-xəttində də özünü aşkar büruzə verir.

Dostoyevskinin yer üzüylə əlaqəsinin kəsildiyi bu illərdə Tolstoy yaradıcılığında bir növ dostoyevskiləşmə gedir. Həmin mərhələnin zirvəsi sayılan “Dirilmə” romanı, heç şübhəsiz, “Cinayət və cəza” mövzusuna qayıdışdır. Bu mərhələdə eynən “Karamazov qardaşları”nda olduğu kimi Tolstoyun əsərlərində də didaktik ton güclənir, əvvəllər knyaz Andreyin mundirinə, Pyer Bezuxovun kostyumuna, mülkədar Levinin çuxasına bürünən dini-mistik duyğular bu dönəmdə Sergi atanın əbasına, Nexlyudovun zünnarına bükülür.

***

“İvan İliçin ölümü” povesti həm ümumən Tolstoy yaradıcılığının, həm də onun sonrakı dönəmdə yazdıqlarının zirvələrindən biridir. Povest 1886-cı ildə qələmə alınıb. Qəhrəmanın prototipi dünya şöhrətli rus alimi, fiziologiya üzrə Nobel mükafatı laureatı İlya Meçnikovun böyük qardaşı, Tula vilayət məhkəməsinin prokuroru vəzifəsində çalışmış, 1881-ci ildə qırx beş yaşında dünyadan köçmüş İvan İliç Meçnikovdur. Əsərin qəhrəmanı da öz prototipi kimi məhkəmə müstəntiqi vəzifəsində çalışır, o da ağır mərəzə qırx beş yaşında mübtəla olur. Hərçənd İvan İliç Qolovini İvan İliç Meçnikovla eyniləşdirmək olmaz, onların həm bioqrafiyaları, həm yaşayış məskənləri, həm də xəstəlikləri arasında ciddi fərqlər var.

Povest İvan İliçin iş yoldaşlarının onun ölüm xəbərini alması səhnəsiylə başlayır. Tolstoy onların bu xəbərə verdikləri reaksiyanı incə detallarla oxucuya çatdırır. Artıq bir vəzifə kürsüsü boşalıb, kimi gözünü həmin kürsüyə, kimi də həmin kürsünü tutası məmurun boşaldacağı yerə dikib.

Ən başlıcası isə budur: “Bu ölüm hər birinin beynində iş yerlərində baş verəcək dəyişikliklərlə bağlı mülahizələr oyatmaqla yanaşı, həm də sevindirdi onları; həmişə hər yerdə olduğu kimi indi də yaxın, tanış adamın ölməsi faktının özü bu xəbəri eşidənlərin hamısının qəlbində şad bir duyğu oyatdı ki, nə yaxşı ölən mən deyiləm, odur”.

İnsan eqoizminin təməl daşlarından olan bu mülahizənin əcdadı antik dövrün Epikür məktəbinə məxsus belə bir tezisdir: “Suda boğulan adama baxan hər kəsin ürəyindən keçən ilk duyğu bu olur ki, nə yaxşı boğulan mən deyiləm, odur”.

***

Ardınca İvan İliçin həyat hekayəti nağıl olunur. Onun ömrü orta ranqlı məmurların həyatından elə də seçilmir. Müəllif bunu belə bir cümləylə xarakterizə eləyir: “İvan İliçin başa çatmış həyat tarixçəsi çox sadə, çox adi, çox da dəhşətli idi”.

Məmur atasının üç oğlundan ortancılı olan İvan İliç hüquq məktəbini bitirəndən sonra özünə karyera qurmağa başlayır. Əyalətdən-əyalətə köçə-köçə vəzifə pillələrində addım-addım yüksəlir, vaxtı çatanda cəmiyyətin gözündə normal reputasiyası olan bir ailənin qızıyla evlənir, ancaq sevib-seçdiyinə görə yox, məhz cəmiyyətin məqbul sayacağı mülahizəsiylə.

İvan İliç öz işindən, qulluğundan razıdır, vəzifəsini ləyaqətlə yerinə yetirməyə, həm dövlət qanunlarına, həm də ictimai qaydalara riayət eləməyə çalışır, ümumən götürəndə pis adam deyil, məhkumlarla da insafsız davranmır. Bunlarla belə, özünü imkanlı adamlara xas əyləncələrdən, məclislərdən də aralı tutmur. Uzun illər nümunəvi xidmət göstərdiyini nəzərə alan rəhbərlik öz xahişiylə onun işini paytaxta dəyişir, İvan İliçin maaşı da artır, şəraiti də yaxşılaşır.

Peterburqda köçəcəyi yeni mənzilin təmiriylə maraqlanıb hər bəzək-düzəyin xırdalığına varanda, ustalara həvəslə, fərəhlə göstərişlər verəndə o, nərdivandan yıxılıb sol böyründən ağır zədə alır. Beləliklə, kefinin ən kök çağında, karyerasının pik vaxtında, işlərinin yağ kimi getdiyi bir zamanda İvan İliç aldığı zədədən sağalmaz xəstəliyə mübtəla olur, hərçənd onun bədxasiyyət mərəzinin adını müəllif oxucuya dəqiq demir. Adicə bir təsadüf dağ boyda kişinin taleyinə sərəncam verir. Nə qədər miskin aqibət! Halbuki təsadüflər məkanından zərurət məqamına sığınanda, determinizm zindanından azadlıq səmasına pərvazlananda insanın belə bir aqibətə ürcah gəlmək, belə qismətə baş əymək ehtimalı da qat-qat azalır.

Həkimlər onun dərdindən baş aça bilmirlər. Ağrısının artması ucbatından özünə qapıldıqca dost-tanış da, ailəsi də yavaş-yavaş ondan qopur. Onlara qayğıya möhtac xəstə can yox, sağlam, gümrah, işə yarayan İvan İliç lazımdır. Ağrıyan İvan İliç onların şənliyinə, həyat sevinclərinə kölgə salır, onların iştahasını pozur. Hamısına elə gəlir əcəl yalnız İvan İliçin qismətidir, özləri dünya durduqca yaşayacaqlar. Onların bu dünyadakı möhlət hüququ hələlik qüvvədədir, fəqət İvan İliçin kef limiti artıq bitib, onun həyatdan aldığı həzz ağrıya, zövq əzaba çevrilib, canındakı ehtiras qorxuya transformasiya olunub. Ancaq necə deyərlər, qorxunun əcələ faydası yoxdur.



**F.Uğurlu**

**davamı növbəti sayımızda**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"PressInform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Türküstan Media Group" MMC – 050 241-48-23
"Region Press" MMC – 055 316-79-01
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




## Ramazan ayı 26-cı günün duası

**"Allahumməc-əl sə-yi fihi məşkura. Və zənbi fihi məğfura. Və əməli fihi məqbula. Və eybi fihi məstura. Ya əsməəs-samiin".**
**"İlahi, bu gün mənim səylərimi qiymətləndir, günahlarımı bağışla, əməlimi qəbul et, eyblərimi ört! Ey bəndələrini hamıdan yaxşı eşidən Allah!".**

# Cəmi 23 il ömür yaşamışdı...




*Yeganə BAYRAMOVA*

Adətən bir çoxlarımız bu gün görəcəyimiz işləri sabaha saxlayırıq. Amma həmin sabah və həmin gün gələcəkmi, yaxud o qədər ömrümüz varmı? Yarımçıq qalmış, müəllifin tamamlamağa ömrü yetmədiyi minlərlə əsərləri misal çəkə bilərik. Herodotun "Tarix"i, Tanpınarın "Aydakı qadın"ı, Bayronun "Don Juan"ı, Kafkanın "Qəsr"i, Ənvər Məmmədxanlının "Babək"i, Motsartın "Rekviem"i...

Azərbaycanın görkəmli bəstəkarlarından olan Asəf Zeynallı cəmi 23 il ömür yaşayıb. 16 yaşından müntəzəm yaradıcılığa başlayan bəstəkar geriyə qalan 7 illik ömrünə xarüqələr sığdırıb. Və nə yaxşı ki, işlərini sabaha saxlayanlardan olmayıb. Çünki əksi olsaydı, başqalarının on illərlə vaxt sərf edəcəyi işləri cəmi yeddi ilə sığdıra bilməzdi. Əslində, heç sığdıra da bilmədi... Hələ reallaşdırmadığı neçə-neçə planı, layihəsini əvvəlcə xəstəxana palatalarına, sonra da torpağın altına apardı. Palatalardan nələrisə, kimlərisə geri almaq olur, amma torpaq elədimi? Torpağın üzü elə soyuqdur ki. Aldığını geri vermir...

Bu gün Asəf Zeynallının doğum günüdür. Bəstəkarın anadan olmasından 115 il keçir. O, 1909-cu ilin 5 aprelində Dərbənddə, ailənin üçüncü və sonbeşik övladı kimi dünyaya gəlib.

7 yaşında Dərbənd "Realnı məktəbi"nə daxil olan gələcək bəstəkar burada uşaq xorunda oxumağa başlayır, klarnet çalmağı öyrənir. Yay axşamlarında şəhər parkında konsert verən Dərbənddəki nəfəsli orkestrin tərkibinə qatılır, orada klarnetçi kimi çıxış etməyə başlayır. 11 yaşı olanda Bakıya köçürlər. O, hərbi məktəbin nəzdində nəfəsli orkestrdə truba çalmağı öyrənir, sonra Bakı Musiqi Texnikumunun truba, violonçel, fortepiano siniflərində təhsil alır. "Truba üçün pyes"ini də elə burada, cəmi 14 yaşında ifa edir. O vaxtadək trubanı hərbi marş aləti hesab edənlər Asəfin "Rast" muğamı əsasında bəstələdiyi pyesi möcüzə kimi qiymətləndirirlər.

Asəf Zeynallı həm də ilk Türk Musiqi Məktəbində təhsil alan gənclərdəndir. O dövrdə oğlanlarla qızların bir yerdə təhsil aldığı musiqi məktəbinin olması,




əlbəttə, böyük hadisə idi. Məktəbin yaradılmasında təşəbbüs göstərən də mütərəqqi ziyalılarımızdan olan Üzeyir bəy Hacıbəyov olub. Məktəbin müdiri də, Asəfin nəzəriyyə müəllimi də Üzeyir bəy idi. O, Asəfin ölümündən 1 il sonra yazdığı məqalədə qeyd edib: "Şagirdimin diqqətini türk xalq musiqisi ladlarının əmələ gəlməsinə və 2 musiqi sistemi (ərəb-fars və Avropa) arasındakı fərqlərə yönəldirdim".

İlk Türk Musiqi Məktəbində oxumağa maraq göstərən çox olur. Hətta birinci il 500 gənc məktəbdə təhsil almaq üçün müraciət edir. Marağın çoxluğunu nəzərə alıb məktəbi texnikuma çevirirlər. Asəf texnikumu uğurla bitirdikdən sonra konservatoriyaya daxil olur. Artıq bəstəkarlıqla professional şəkildə məşğul olan gənc konservatoriyada Qərbi Avropa və rus klassik musiqisi dərnəyini yaradır. Maraqlı məruzələrlə çıxış etməyə başlayır.

Konservatoriyada oxuya-oxuya istedadlı musiqiçi Türk İşçi Teatrının musiqi rəhbəri təyin edilir. Burada müxtəlif tamaşalara musiqi yazır. Eyni zamanda, Azərbaycan Proletar Musiqiçiləri Cəmiyyətinə sədrlik də edir.

A.Zeynallı Azərbaycan Dövlət Konservatoriyasında professional bəstəkarlıq təhsili almış ilk bəstəkarımızdır. Konservatoriyada Üzeyir Hacıbəylinin məşğələlərinə böyük maraqla qatılır, dahi sənətkardan bu sənətin bütün incəliklərini öyrənməyə çalışırdı. Onun yaradıcılığında da Üzeyir bəyin danılmaz rolu olub. Müəllimindən xalq musiqisinin əsaslarını öyrənən Asəf sonralar ölkənin ucqar yerlərinə gedərək xalq mahnılarını toplamağa başlayır.

Azərbaycan musiqi tarixində ilk romans Asəf Zeynallının adıyla bağlıdır. Musiqimizin qızıl fonduna daxil edilmiş "Ölkəm" romansı onun bir bəstəkar kimi özünütəsdiqinə kifayət edəcək gücdədir. Adları həmişə qoşa çəkilir. "Ölkəm" romansı deyiləndə Asəf Zeynallı, Asəf Zeynallı deyiləndə "Ölkəm" romansı yada düşür.

Maraqlıdır ki, romansın həm bəstəkarı, həm də sözlərinin müəllifi nakamdır. "Ölkəm" şeirini qələmə alan Cəfər Cabbarlının ömrü də yarıda qırılıb. Cəmi 35 yaşında dünyadan köçüb. Bəlkə də elə buna görə romansda axıcılıq, ruh yüksəkliyi, canlılıqla yanaşı, qəribə bir hüzn izi var...

1932-ci ilin yayında xalq mahnılarını toplamaq üçün bölgələrə səfər təşkil edilir. Səfərə rəhbərliyi əsrarəngiz səsə malik, görkəmli müğənni, bəstəkarın uşaqlıq dostu Bülbül edir. O, dostunu da özüylə aparmaq istəyir: "Asəf, gedək Qarabağa, oradakı mahnıları toplayıb gətirək, nota alaq". Asəf həvəslə razılaşır. Yeni işlər, ideyalar, bəstələr həvəsində yola hazırlaşır. Beləcə, üz tuturlar Qarabağa. Kəndbəkənd dolaşıb mahnı toplamağa başlayırlar. Şuşada Xan Şuşinski ilə tanış olur, onun "Alma almaya bənzər" mahnısını da nota alırlar.

Günlərin birində Asəfin halı pisləşir. Diaqnoz isə qorxulu olur - yatalaq! Gənc bəstəkar müalicə üçün Bakıya dönür...

1932-ci ilin oktyabrında xəstəxanada ölümlə çarpışan Asəf divara nəsə yazırdı... Oktyabrın 27-də, yəni öldüyü gün bəstəkar cızma-qaralamanın sirrini qardaşına açır: "Bu, mənim simfoniyamdır. Öləcəyimi bilirəm. O əsəri divardan kağıza köçürün, qoymayın elə divarda qalsın...".

Lakin hansısa səbəbdən Asəfin vəsiyyəti yerinə yetirilmir. Beləcə, bəstəkarın son əsəri özü kimi nakam qalır...

Əslində, Asəf Zeynallının ölümü də müəmmadır. Çünki yatalaq xəstəliyi o vaxtlar artıq çox da ölümcül hesab olunmurdu. Üstəlik, paytaxt xəstəxanasında. Nə müharibə vardı, nə ucqar kənd yeriydi, nə də insan ayağı dəyməyən cəngəllik... Bütün bu qaranlıq məqamlara, suallara, müəmmalara rəğmən qarşımızda ağrılı fakt var. Azərbaycan musiqi tarixinin ən istedadlı nümayəndələrindən olan Asəf Zeynallının bu dünyadakı ömrü çox erkən - 23 yaşında qırıldı. "Vəfat etdi", "dünyasını dəyişdi", "dünyadan köçdü", "gözlərini yumdu" kimi bərbəzəkli ifadələr, məncə, ona yaraşmır. Çünki heç bir əsərində bərbəzək, təmtəraq yoxdur. Qəribə bir səmimiyyət, həya duyulur bütün musiqilərində...

## *İdman*

### Boks üzrə Azərbaycan millisinin Avropa birinciliyi üçün heyəti bəlli olub

Gənc boksçulardan ibarət Azərbaycan millisi Xorvatiyanın Poreç şəhərində keçiriləcək Avropa birinciliyində iştirak edəcək.

Azərbaycan Boks Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, 10 gün davam edəcək yarışda yığmamız 11 idmançı ilə təmsil olunacaq.

Məşqçilər korpusu Poreçdə Bilalhəbaşi Nəzərov (48 kiloqram), Zidan Hümbətov (51 kiloqram), Ömər Aslanlı (54 kiloqram), Məhəmmədəli Aşurəliyev (57 kiloqram), Məhəmmədəli Qasımzadə (60 kiloqram), İbrahim Zeynalov (63,5 kiloqram), Abbasqulu Şadlinski (67 kiloqram), Ziya Həsənov (71 kiloqram), Lalə Mədətova (48 kq), Qızbəs İsgəndər (60 kiloqram) və Emili Rzayevaya (66 kiloqram) şans verəcək.




Komandaya Azərbaycan Boks Federasiyası İdarə Heyətinin üzvü Rövşən Hüseynov rəhbərlik edəcək. Hakimlər Komitəsinin sədri Emil Qurbanəliyev isə referilər sırasında yer alacaq.

Qeyd edək ki, yarışda 35 ölkədən 376 (253 oğlan, 123 qız) boksçunun iştirakı gözlənilir.

### Azərbaycan Kubokunda son 15 mövsümün rekordu təkrarlanıb



Azərbaycan Kubokunun 1/2 final mərhələsinin ilk oyunlarında 7 qol vurulub.

AZƏRTAC Peşəkar Futbol Liqasının rəsmi saytına istinadən xəbər verir ki, "Neftçi" - "Qarabağ" matçında (0:4) dörd, "Zirə" - "Qəbələ" görüşündə (2:1) üç qol vurulub.

Bu, son 15 mövsüm üçün yarımfinalın ən yüksək məhsuldarlığıdır. Daha çox qola 2008/2009-cu illər mövsümündə təsadüf olunub.

Həmin vaxt yarımfinalın ilk qarşılaşmalarında 8 qol qeydə alınıb. "Qarabağ" səfərdə "Bakı"nı 2:1, "İnter" evdə "Qəbələ"ni 5:0 hesabı ilə məğlub edib.

### Daha bir ağırlıqqaldıranımız Dünya Kubokunda mübarizə aparıb

Azərbaycanın daha bir ağırlıqqaldıranı Ömər Cavadov Tailandın Phuket şəhərində keçirilən Dünya Kubokunda mübarizə aparıb.

"Report"un məlumatına görə, 73 kq çəki dərəcəsində çıxış edən idmançı C qrupunda qüvvəsini sınayıb.

O, toplam 328 kq (153+175) nəticə göstərib. Cavadovun yekun sıralamadakı yeri yuxarı qruplardakı yarışlar başa çatandan sonra müəyyənləşəcək.

Qeyd edək ki, Dünya Kuboku aprelin 11-də başa çatacaq. Azərbaycan millisi Paris-2024 Yay Olimpiya Oyunlarına lisenziya xarakterli son turnirdə 5 idmançı ilə təmsil olunur. Daha əvvəl Nazilə İsmayılova (45 kq) yarışda beşinci olub. İsa Rüstəmov (73 kq) D qrupunda 320 kq-ın (145+175) öhdəsindən gəlib.




### Minifutbol üzrə Azərbaycan çempionatı: "Zirə" gözlənilmədən məğlub olub




Minifutbol üzrə Azərbaycan çempionatında 1/4 final mərhələsinin ilk oyunları keçirilib.

"Report" xəbər verir ki, müntəzəm mövsümdə 15 matçın hamısında qalib gələn "Zirə" "Aznur"a uduzub - 0:2.

"Birbaşa Bakı" "İnter"i, "Odlar Yurdu" "Abşeron"u 4:1 hesabı ilə üstələyib.

"Real Bakı" - "Qalaksi" görüşündə qalib müəyyənləşməyib - 1:1.

Qeyd edək ki, mərhələnin cavab görüşləri aprelin 10-da keçiriləcək.





### "Azercell"in Instagram izləyicilərinin sayı 200 000 oldu!

*Lider mobil operatordan dəyərli hədiyyələr qazanmaq imkanı!*

"Azercell"in Instagram səhifəsində izləyici sayı 200 000-i ötdü. Şirkət 2012-ci ildən etibarən aktiv şəkildə idarə etdiyi səhifənin izləyici auditoriyasını informativ, maraqlı və faydalı məzmunlu paylaşımlar vasitəsilə genişləndirməyə müvəffəq olub.

Ümumilikdə, "Azercell"in "Facebook", "X", "Instagram", "LinkedIn" və "YouTube" platformalarında istifadəçi sayı 1 milyonu ötür. Bu kanallarda lider mobil operator keçirdiyi layihələr, xüsusi təkliflər və kampaniyalar haqqında məlumat paylaşır, eləcə də müştəriləri ilə real vaxt rejimində birbaşa ünsiyyət qurur. Ölkədə sosial media üzərindən müştəri xidmətlərini təqdim edən ilk mobil operator olaraq Azercell bu istiqamətdə öz fəaliyyətini uğurla davam etdirir, abunəçiləri tərəfindən ünvanlandırılan sualları operativ şəkildə cavablandırır.

Həmçinin şirkət rəsmi sosial media hesablarında təşkil etdiyi tədbirlərdən canlı yayımlar açır, eyni zamanda müsabiqələr keçirərək izləyicilərinə dəyərli hədiyyələr qazanmaq imkanı verir. Qeyd edək ki, aprel ayının 2-dən etibarən "Azercell Instagram" platformasında növbəti müsabiqəyə start verib. Müvafiq paylaşımın şərh bölməsində öz "Instagram" səhifəsinin izləyici sayını yazan hər kəs müsabiqədə iştirak edə bilər. Müsabiqə 8 aprel 14:00-dək davam edəcək.

"Azercell"i sosial mediada izləyin və ən son yeniliklərdən xəbərdar olun!

"Facebook": https://www.facebook.com/azercell

"Instagram": https://www.instagram.com/azercell/

"YouTube": https://www.youtube.com/c/AzercellYouTube

"X": https://twitter.com/azercell

"LinkedIn": https://www.linkedin.com/company/azercell/

"Threads": https://www.threads.net/@azercell

"TikTok": https://www.tiktok.com/@azercell_official



Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5601**
**Sifariş: 738**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Günel Abbas